# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 06 (3422) Cümə axşamı / 10-16 fevral 2022-ci il Qiyməti 40 qəpik

# PAY TORPAQLARI:

## azad edilən rayonlarda

**Yaxın vaxtlarda işğaldan azad olunmuş ərazilərə keçmiş məcburi köçkünlərin ilk hissəsinin köçürülməsinə başlanılacaq. Zəngilan rayonunun Ağalı kəndi ərazisində salınmış "ağıllı kənd" öz sakinlərini qarşılamağa hazırdır. İndi keçmiş məcburi köçkünləri düşündürən əsas məsələlərdən biri də azad olunmuş ərazilərdə qeydiyyatda olan vətəndaşlara pay torpaqların verilib-verilməyəcəyidir.**

**Xatırladaq ki, Azərbaycanda torpaq islahatı 1996-cı ildə başlayıb və bir neçə il davam edib. Bu islahat nəticəsində keçmiş kolxoz və sovxozlar ləğv edilərək, onlara məxsus ərazilər pay torpağı şəklində yerli əhaliyə paylanıb. Qarabağ bölgəsinin rayonları isə işğal altında olduğundan orada torpaq islahatı aparılmayıb. Məsələni hafta.az-a şərh edən Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirib ki, Qarabağ bölgəsi işğal altında olduğu üçün indiyə kimi həmin ərazilərdə torpaq islahatı aparmaq mümkün olmayıb: "Bu məsələdə narahat olmağa heç bir əsas yoxdur. Bununla bağlı Azərbaycanda qanunvericilik bazası mövcuddur.**

**Sözsüz ki, pay torpaqlarının verilməsində də həmin sənədlərə istinad ediləcək. Ancaq elə ərazilər var ki, onların xarakterinə, təbii şəraitinə, torpaqların az və ya çox olmasına görə bu torpaqlar bölünməlidir. Yenə deyirəm, ərazi məlum, xəritə məlumdur. Ola bilsin, indi bizdə iqtisadi rayonlar yaradılıb. Yeni "ağıllı kənd", "ağıllı şəhər" layihələrinin yaranması ilə əlaqədar müəyyən ucqar kəndlər birləşdirilə bilər. Yaxud da rayonun mərkəzində şəhər var, tutaq ki, Füzuli və ya Ağdam şəhəri.**



## ...Necə və hansı qaydada veriləcək

Bu rayonların daha gözəl, daha müasir olmasından ötrü həmin pay torpaqları ətraf ərazilərə verilsin. Elə kəndlər var ki, ərazisinə görə orada yaşayan insanlara da pay torpaqları verilməlidir. Ancaq xırda kəndlər birləşdirilirsə, sözsüz ki, bu torpaqlar da birləşdirilməlidir. Heç bir vətəndaş etiraz edə bilməz ki, mən filan kənddə yaşayırdım, mənim pay torpağım da orada verilməlidir. Bu, mümkün olan şey deyil. Əgər o kəndlər, torpaqlar birləşdiriləcəksə, bu da hökumətin qərarından asılı olan məsələdir. Təbii ki, pay torpağı əhalinin sayına və torpağın həcminə görə veriləcək".

Millət vəkili vurğulayıb ki, bu istiqamətdə müvafiq işlərin aparılması ilə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti məşğul olmalıdır: "Əvvəllər rayonlarda torpaq şöbələri var idi. İndi bu işlə Əmlak Məsələləri Dövlət Xidməti məşğul olur. Torpaqların analizi, xəritəsinin çəkilməsi, müvafiq reyestrlə bağlı bu qurumda şöbələr var. Sözsüz ki, İqtisadiyyat Nazirliyi hökumətlə bərabər bu istiqamətdə tədbirlər həyata keçirməlidir. Digər tərəfdən, yerlərdə Kənd Təsərrüfatı Nazirliyinin aqrar şöbələri var. O şöbələr ki, onlarda səriştəli adamlar işləyir və köhnə xəritələr də var. Yeni xəritələrin tətbiq olunması ilə işlər daha da asanlaşacaq. Peyk vasitəsilə bu torpaqların xəritəsi çəkilir. Elə bilirəm ki, bunların hamısı nizamlanmalıdır. Bunu da İqtisadiyyat Nazirliyinin müvafiq şöbələri həyata keçirməlidir. Təbii ki, bu istiqamətdə işlər mərhələli şəkildə aparılmalıdır. Həmin ərazilərdə təhlükəsizlik məsələləri tam həllini tapmayıb və mənfur düşmən 30 ilə yaxın bir müddətdə o əraziləri viran qoyduğundan, orada infrastrukturu bərpa etmək uzun zaman alacaq. Sözsüz ki, indi daxili imkanlar və xaricdən gətirilən minaaxtaranlar hesabına ərazilər minadan təmizlənməkdədir. Yenə də deyirəm: bu uzun bir prosesdir və zamanı çatanda həmin ərazilərə köçürülən insanlar həm pay torpaqları, həm də həyətyanı sahələrlə təmin ediləcəklər".

*"Heç bir vətəndaş etiraz edə bilməz ki, filan kənddə yaşayırdım, pay torpağım da orada verilməlidir*

*Perspektivdə həmin pay torpağını vətəndaş özəlləşdirə, müəyyən mənada girov qoya biləcək*

■ **Məsələyə münasibət bildirən "Bələdiyyələrin fəaliyyətinin təbliği" İctimai Birliyinin sədri Vüqar Tofiqli deyir ki, pay torpaqlarının bölgüsü prosesində neqativ halların olması ehtimalı mümkündür:** "Bilisiniz ki, biz torpaq məsələsində çox həssas millətik.



Bu prosesin icrasına hələ illər var. İşğaldan azad olunmuş əraziyə əhalinin köçürülməsindən əvvəl orada infrastruktur qurulmalıdır. Bundan sonra əhali həmin ərazilərə köçürülməlidir. Daha sonra bələdiyyələrin formalaşdırılması həyata keçirilməli və yalnız bundan sonra vətəndaşlara pay torpaqlarının verilməsi məsələsi gündəmə gələ bilər. İstənilən halda torpaqla bağlı məsələlərin icrasını Əmlak Məsələləri üzrə Dövlət Xidmətinə vermək lazımdır. Bu mənim subyektiv fikrimdir. Bu məsələdə hər hansı neqativ olmaması üçün belə bir addım atılmalıdır. Yəni, məsələni bir qurum tənzimləməlidir. Sadəcə olaraq, iştirakçı kimi bu prosesə bələdiyyə, hansısa nümayəndəlik cəlb oluna bilər. Yekun söz olaraq bir daha deyirəm ki, Əmlak Məsələləri üzrə Dövlət Xidmətinə məxsus olmalıdır. Burada söhbət pay torpağından, əmlakdan gedir və perspektivdə həmin pay torpağını vətəndaş özəlləşdirə, müəyyən mənada girov qoya biləcək. O nöqteyi-nəzərdən işin icrası əmlak məsələləri üzrə dövlət qurumuna həvalə olunmalıdır. Təbii ki, bu prosesin reallaşması illərsonra baş verə bilər. Biz indi sadəcə fikir mübadiləsi apara bilərik. Yəni, minaların təmizlənməsi prosesi yekunlaşdıqdan, təhlükəsizlik tam təmin olunduqdan və infrastruktur qurulduqdan sonra bu istiqamətdə daha geniş fikir mübadiləsi aparmaq olar".

■ **Mövzu ilə bağlı İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətindən hafta.az-ın sorğusuna cavab olaraq bildirilib ki, "Torpaq islahatı haqqında" qanunun 24-cü maddəsinə əsasən işğaldan azad olunan torpaqlarda islahatın aparılması, həmin ərazilərdə iqtisadiyyatın bərpası dövlət proqramı əsasında həyata keçirilir:** "İşğaldan azad olunmuş ərazilərdə torpaq islahatının aparılması Azərbaycan Respublikasının torpaq islahatı haqqında qanunvericiliyi və qəbul ediləcək normativ-hüquqi aktlar əsasında reallaşdırılacaq. Bununla bağlı aidiyyəti qurumlar tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2022-2026-cı illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı" layihəsi hazırlanıb.

İşğaldan azad olunmuş ərazilərdə torpaqlardan istifadənin planlaşdırılması, ərazi vahidlərinin (rayon, şəhər, qəsəbə, kənd) sayının və yaşayış məntəqələrinin sərhədlərinin dəqiq müəyyən olunması, buna uyğun olaraq həmin ərazilərdə məskunlaşdırmanın həyata keçirilməsi, bu ərazilərdə mövcud torpaq fondu haqqında kadastr və balans məlumatlarının dəqiqləşdirilməsi (kəmiyyət və keyfiyyət göstəriciləri, kateqoriyaları, məqsədli təyinatları və digər kadastr məlumatları) tədbirləri həyata keçirildikdən, habelə torpaq islahatı ilə bağlı ümumi konseptual yanaşma və prinsiplər qəbul edildikdən sonra torpaq islahatının aparılmasına dair yeni meyarların və konkret təkliflərin hazırlanması təmin ediləcəkdir".

*Sevinc*

---

MÜSAHİB

## Azərbaycan səfiri Kərkükə gəlmədi...



**Riyaz Sarıkahya,**
İraq türkmənlərinin milli lideri, Türkməneli Partiyasının sədri

***Əvvəllər İraq dünyanın ən bəxtəvər ölkələrindən biri idi. Varlı-karlı, siyasi aləmdə sayılıb-seçilən, ərazisində bəşər tarixinin ən güclü, əfsanəvi dövlətlərini yaradan, "Min bir gecə" nağıllarını özündə yaşadan bu ecazkar dövlət, təəssüf ki, 1990-cı ildən üzübəri müharibələrə səhnə oldu, Amerika tərəfindən işğal edildi və xoşbəxtlik məkanı olan bu iki çay arası yurdda terror hücumları insanları vahiməyə saldı... Ölən öldü, sağ qalan ev-eşiyini atıb hara gəldi qaçdı, getdi.***

*Səddam 18 ildir devrilib, amma bu gün ölkədə elektrik enerjisi yoxdur*

Səh. 6

SƏHİYYƏ



**Musa Quliyev,**
Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri

■ Biz dərman, tibb sənayemizi və tibbi xidmətlərimizin göstərilməsini Türkiyənin tibb və dərman sənayesi ilə inteqrasiya etməliyik...

■ Arzu etdiyimiz keyfiyyətdə icbari tibbi sığortanın həyata keçirilməsini təmin edə bilməmişik...

■ Səhiyyədə uzun illər çalışmış kadrların bəziləri yeni düşüncə tərzinə malik deyildilər...

Səh. 7

GÜNÜN FOTOSU...



Səlcuq Bayraktar Qənimətlər Parkında...

GÜNÜN SİTATI

*"Azərbaycan Ermənistanla sərhədin delimitasiya və demarkasiya prosesinə qeyd-şərt olmadan başlamağa hazırdır"*



**Ceyhun Bayramov,**
Azərbaycanın xarici işlər naziri

---

KARİKATURA



Dərdin yekəsi...

## Avropa Qarabağ məsələsinə qarışmaq istəmir

**Elxan Şahinoğlu,**
politoloq

Bizim üçün maraqlı olan əsas məsələ tezliklə sərhədlərin müəyyənləşməsi, sülh sazişinin imzalanması, kommunikasiya xətlərinin açılmasıdır.

Səh. 3

STATİSTİKA



■ **Ötən il "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-də ümumi yükaşırmanın həcmində 14,6 faiz, quru yükün aşırılması 66 faiz, konteyner daşınması isə 11,6 faiz artıb. Bununla da proqnoz 104 faiz həcmində icra edilib.**

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun mühüm hissəsi olan limanda ümumi yükaşırmanın həcmi 5,6 milyon ton olubdur ki, bu da 2020-ci ilin müvafiq göstəricisindən 14,6 faiz çoxdur.



Səh. 5

## Evi plana düşənlər

PREZİDENTİN İŞ GÜNÜ

# Sahibkarlıq sahəsində yoxlamalar daha 1 il dayandırılıb



**Azərbaycanda sahibkarlıq sahəsində olan yoxlamaların dayandırılmasının müddəti daha 1 il uzadılıb. Bu, Prezident İlham Əliyevin bu gün təsdiqlədiyi "Sahibkarlıq sahəsində yoxlamaların dayandırılması haqqında" qanuna dəyişiklikdə əksini tapıb.**

Dəyişikliyə əsasən, Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar (qanunun 2.1-ci maddəsində nəzərdə tutulan yoxlamalar istisna olmaqla) 2023-cü il yanvarın 1-dək dayandırılıb. Əvvəl bu müddət 2022-ci il yanvarın 1-dək müəyyən edilmişdi.

Qeyd edək ki, qanunun 2.1-ci maddəsində nəzərdə tutulan yoxlamalar aşağıdakılardır:

- vergi yoxlamaları, maliyyə bazarları sahəsində aparılan yoxlamalar, gömrük auditi, müvafiq icra hakimiyyəti orqanı tərəfindən özəl tibb fəaliyyətinin subyektlərində aparılan yoxlamalar, eləcə də dərman vasitələrinin keyfiyyəti, təhlükəsizliyi qaydalarına riayət edilməsi və qida məhsullarının təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi ilə bağlı yoxlamalar, yanğın nəzarəti, tikintiyə dövlət nəzarəti, təhlükə potensiallı obyektlərin və dağmədən sahələrinin təhlükəsiz istismarına nəzarət və radiasiya təhlükəsizliyinə nəzarət sahəsində yoxlamalar, enerji, su, kanalizasiya və qaz təchizatı müəssisələrinin səlahiyyətli nümayəndələri tərəfindən sahibkarlıq subyektlərinin elektrik, su və qaz sayğaclarının göstəricilərinin oxunması zamanı müəyyən edilən həmin sayğaclara müdaxilə, habelə sayğacdan kənar paylayıcı şəbəkəyə qanunsuz qoşulma (təchizat müəssisəsinin razılığı olmadan şəbəkəyə qoşulma) hallarının araşdırılması ilə bağlı yoxlamalar, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunun tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı həmin qanunla müəyyən edilmiş nəzarət orqanları tərəfindən həyata keçirilən yoxlamalar, habelə insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar.

Həmin yoxlamalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla aparılır.

Xatırladaq ki, 2015-ci il noyabrın 1-dən qüvvəyə minən qanunun müddəti 2021-ci il yanvarın 1-dək olan dövrü əhatə etdiyi və bu müddət bitdiyi üçün keçən il yaz sessiyasında da 1 il (2022-ci il yanvarın 1-dək) artırılmışdı.

# Ermənistanın məntiqsiz açıqlamasının şahidi olduq

**Azərbaycan müxtəlif beynəlxalq platformalarda itkin düşmüş şəxslərin məsələsini qaldırıb və buna davam edir.**



Bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov moldovalı həmkarı ilə birgə mətbuat konfransında bildirib.

O bildirib ki, 44 günlük müharibədən əvvəl Ermənistan tərəfinin beynəlxalq humanitar hüquqa əsaslanan öhdəliklərini yerinə yetirməsinə şahid olmayıblar: "4 fevralda keçirilən dördtərəfli görüşdə (Azərbaycan, Fransa, Aİ və Ermənistan liderləri- red.) humanitar məsələlər müzakirə olunub və itkin düşmüş şəxslərin məsələsi qaldırılıb. 3890 nəfər itkin düşmüş şəxs kimi qeydiyyatdadır. Onlardan 719 nəfəri mülki şəxslərdir. Ermənistan naziri bu sahədə əməkdaşlıq vədi verib. Lakin sonradan paradoksun və məntiqə uyğun olmayan açıqlamanın şahidi olduq. Nazirlik heç bir vədin verilmədiyi barədə açıqlama verdi. Bu, mənəviyyata, insanlığa sığmayan açıqlamadır və məyusluq, təəccüb və mənfi hislər doğurur. Azərbaycan davamlı və israrla bu məsələnin üzərinə gedəcək. Dünya dövlətləri bu istiqamətdə Ermənistana təzyiqləri artırmalıdır".

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az



*Fransa Prezidenti Emmanuel Makron Rusiya və Ukraynaya səfər etdi. Təbii ki, gündəmin əsas mövzusu Ukraynaya hücum təhdidi ilə bağlı Qərblə Moskva arasında yaşanan gərginliyin yüksələn xətt üzrə artması idi. Gözləntilərin əksinə olaraq dünya mətbuatının diqqəti Putin-Makron müzakirələrinin yekunlarından daha çox, Moskvada Fransa prezidentinə göstərilən münasibət, Kremlin görüşün təşkili ilə bağlı müəyyən detallar vasitəsilə Qərbə ünvanlamaq istədiyi mesajlar diqqət mərkəzində oldu. Ukrayna cəbhəsində isə hələlik dəyişən elə bir ciddi məqam yoxdur. Rusiya bu ölkə ilə sərhəddə qoşunlarını cəmləşdirməkdə davam edir. Qərb isə Ukraynanı durmadan silahlandırır.*

Gündəm

# UKRAYNA silahlanır — RUSİYA qoşun yığır

TASS-ın məlumatına görə,Ukraynanın baş naziri Denis Şmıxal hökumətin iclasında bildirib ki, Qərb Kiyevə 1,5 milyard dollarlıq hərbi yardım edib. "Tərəfdaşlarımız artıq Ukraynaya, təqribən, 1,5 milyard dollarlıq hərbi yardım göndərib və bir sıra digər ölkələr Ukraynaya hərbi və maliyyə yardımı imkanlarını nəzərdən keçirir", - deyə baş nazir bildirib. Bundan əvvəl Ukraynanın xarici işlər naziri Dmitri Kuleba da Kiyevin son aylarda Qərbdən 1,5 milyard dollarlıq dəstək aldığını bildirib.

Ukraynanın müdafiə naziri Oleksi Reznikov isə bildirib ki, fevralın 8-i və 9-da Böyük Britaniyadan hərbi-texniki yardımla dolu yük ölkəsinə gəlib. O, bu barədə öz Twitter səhifəsində məlumat verib. Müdafiə naziri aydınlaşdırıb ki, söhbət Ukrayna Silahlı Qüvvələrinin ərazi müdafiə qüvvələri üçün hərbi mallar və texnikadan gedir: gülləkeçirməz jiletlər, dəbilqələr və s. "Tərəfdaşlarımıza davamlı siyasi və diplomatik dəstəyə və hərbi yardıma görə təşəkkür edirik", - Reznikov yazıb. Ukraynanın Londondakı səfiri Vadim Pristayko bildirib ki, Böyük Britaniya dostlar axtarır və Kiyevdəki problemlərə baxmayaraq, Ukrayna bu rola uyğundur. Müttəfiqliyə hazır olduğunu nümayiş etdirmək üçün London Kiyevlə 2 milyard dollarlıq hərbi müqavilə bağladı.

NATO-nun Baş katibi Yens Stoltenberq İspaniyanın "La Vanguardia" qəzetinə müsahibəsində Ukrayna və Gürcüstanın alyansın Madriddə keçiriləcək sammitinə dəvət olunması ideyasını dəstəklədiyini bildirib. Qeyd olunur ki, NATO nümayəndələrinin görüşü iyunun 29-30-da keçiriləcək. "Düşünürəm ki, bu, tərəfdaşlarla görüşlər üçün yaxşı platformadır" deyib Stoltenberq. O əlavə edib ki, sammitin dəqiq formatı müəyyən edilməlidir.

Görünən odur ki, hələ bir müddət hər iki cəbhədə diplomatik və hərbi-siyasi fəallıq müşahidə ediləcək. Beynəlxalq KİV isə bu gərginliyə smüxtəlif səpkilərdən yanaşır. Hafta.az beynəlxalq Ukrayna gündəmi ilə bağlı bəzi seçmələri sizlərə də təqdim edir.

## ■ Fitch s S&P (beynəlxalq reytinq agentliyi):

- S&P s Fitch reytinq agentliyi Ukrayna ilə münaqişənin gərginləşməsinin Rusiya iqtisadiyyatı üçün nəticələrini qiymətləndirib. Rusiya ilə Qərb arasında münasibətlərdəki gərginliyə görə, analitiklər Ukrayna ərazisinə mümkün "işğal" olmasa belə, Rusiya iqtisadiyyatına ziyan vuracağını proqnozlaşdırırdılar.

Fitch hesab edir ki, Ukraynada vəziyyətin eskalasiyası halında, çox güman ki, Rusiyanın amerikalılar üçün ikinci dərəcəli dövlət borcu ilə əməliyyatlara qadağa qoyulması, eləcə də Rusiyanın yüksək rütbəli məmurlarına, dövlət qurumlarına və Rusiya prezidenti Vladimir Putionin tərəfdarlarına qarşı sanksiyalar tətbiq olunacaq. Agentlik Rusiyanın Ukraynaya hücumunu ilkin ssenariyə daxil etməyib. S&P ABŞ və Aİ-nin Rusiyaya qarşı mümkün sanksiyalarını "son dərəcə mənfi ssenarilər" kimi xarakterizə edir. Agentliyin analitikləri hesab edirlər ki, Rusiya Federasiyasının bank sektoruna qarşı yeni sanksiyaların tətbiqi və Rusiyanın SWIFT-dən ayrılması ölkənin xarici ticarətinin göstəricilərinə təsir edəcək.

## ■ Moody's (beynəlxalq reytinq agentliyi):

- Ukrayna ətrafında vəziyyət birbaşa silahlı münaqişəyə çevrilməyəcək, çünki bu, Qərbin sanksiyaları ilə üzləşən Rusiya üçün ciddi xərclər deməkdir. Moody's reytinq agentliyinin analitik hesabatında qeyd edilir. "Bizim əsas göstəricimiz ondan ibarətdir ki, artan gərginlik davam edəcək, lakin birbaşa hərbi münaqişəyə səbəb olmayacaq", - Moody's icmalında bildirib. Ekspertlər xəbərdarlıq ediblər ki, Rusiyanın hərbi müdaxiləsi halında agentlik ölkənin suveren kredit reytinqini aşağı salmalı olacaq. Hazırda Rusiyanın investisiya keyfiyyəti reytinqi sabit proqnozla Baa3 səviyyəsindədir. Moody's iddia edir ki, Ukraynaya qarşı istənilən hücum Qərbin yeni anti-Rusiya sanksiyalarına səbəb olacaq. Agentlik ABŞ-ın üç ehtimal olunan məhdudlaşdırıcı tədbirini müəyyən edib: dövlət borcunun təkrar bazarına sanksiyalar,




SWIFT sisteminə çıxışın məhdudlaşdırılması və Rusiya maliyyə institutlarının SDN sanksiyalar siyahısına daxil edilməsi. Eyni zamanda, Moody's Rusiyanın suveren borcu üzrə ödənişlərdə problemlərin ola biləcəyi məhdudiyyətləri "çox uzaq ssenari" adlandırıb. Agentlik baza ssenarisi kimi defolt ehtimalını istisna edib. Ekspertlər Rusiyanın ən mənfi ssenarilərə hazır olduğunu da qeyd ediblər. Xüsusilə, Moody's qeyd edir ki, Rusiya hökumətinin avrobondları Amerika banklarını hesablaşma strukturundan kənarlaşdırıb və ödənişləri dollara alternativ valyutalarla həyata keçirməyə cəlb edib.

## ■ Atlantico (Fransa):

- Fransız politoloq Alexandre del Valle Atlantico nəşrindəki məqaləsində NATO-nun Şərqə doğru sonsuz genişlənməsinə son qoymağa çağırır. Onun fikrincə, bu, ilk növbədə islamçılar və Çin üçün faydalı olan qaçılmaz münaqişə yaradır. Hazırkı gərginlik ABŞ-ın köhnə Avropa adlandırdığı bölgə üçün son dərəcə dağıdıcı və təhlükəlidir. Qərbin Ukraynanın NATO-ya inteqrasiyasına getdikcə daha açıq görünməsi faktı Kiyevin Rusiya ilə onsuz da pis olan münasibətlərini daha da pisləşdirə və bununla da postsovet məkanının və bütün Avropanın sabitliyinə təhlükə yarada bilər. Ukrayna NATO-ya inteqrasiyasına nail olacaqmı? Alyans ölkələrinin əzmkarlığını nəzərə alsaq, belə bir ssenari çox realdır. Bu arada, Ukrayna millətçiləri bir gün mübahisəli ərazilərini hərbi yolla geri almaqda həmişəkindən daha qətiyyətlidirlər. Bu perspektiv son dərəcə təhlükəlidir. Moskva bunun qarşısını ala bilməsə, Çin, Şimali Koreya, İran və digər Qərbə düşmən olan ölkələri dəstəkləməklə qisas alacaq. Moskva Ukraynada tək Donbasda deyil, digər mübahisəli ərazilərdə də rusiyayönlü separatçı qüvvələrə kömək etməklə Qərbi qıcıqlandıra bilər. Qərblə Rusiya arasında hər hansı bir barışığa mane olan bu cür nəhəng geosiyasi çaşqınlıq Qərbin kollektiv təhlükəsizliyinə ziyan vuracaq.

## ■ Bloomberg (ABŞ):

- Ukraynadakı qarşıdurma hələ də təhlükəlidir, lakin çıxılmaz vəziyyətdən çıxış yolu hələ də qalır. Nəşrin redaktorları diplomatiyaya müraciət etməyə çağırır. Putin təhlükəsizlik danışıqlarına hazır olduğuna işarə edib və Qərb Rusiya ilə silahlara nəzarət məsələsində ümumi dil tapmaq şansından istifadə etməlidir. Görünən odir ki, Ukrayna ilə bağlı qarşıdurma hələ də təhlükəlidir. Rusiya heç bir hücum planlaşdırmadığını söyləməkdə davam edir, lakin prezident Vladimir Putin Ukrayna ilə sərhəddə qoşunlar, hərbi texnika, silahlar yığır. ABŞ NATO-nun şərq cinahını gücləndirmək üçün 2700 hərbçi göndərib, ən azı 8500 əsgər isə gözləmə rejimindədir. Ukrayna prezidenti Vladimir Zelenski əvvəllər Rusiyanın hücum təhlükəsinin aşağı olduğunu bildirsə də, son vaxtlar bu böhranın Avropada genişmiqyaslı müharibəyə səbəb ola biləcəyini deməyə başlayıb.

Buna baxmayaraq, dalandan çıxmaq imkanı qalır. Qərb kritik mübahisəli sahələrdə real razılaşmalara təkan verməlidir. Onların arasında Qara dənizdə gəmilər arasında münaqişələrin qarşısının alınması və Rusiyanın əvvəllər bundan imtina etdiyi hərbi təlimlərin şəffaflığının artırılması tədbirləri var. ABŞ Moskvaya Rumıniya və Polşadakı raket əleyhinə müdafiə obyektlərini təftiş etməyə icazə verməklə Rusiyanın narahatlığını aradan qaldıra bilər. Buna cavab olaraq Putin Rusiyada, o cümlədən Polşa ilə həmsərhəd Kalininqrad vilayətində yerləşən raket bazalarına baş çəkməyə və yoxlamaya razılıq verməlidir. Baydenin bu məsələləri müzakirə etmək təklifi ümidverici başlanğıcdır.

## ■ Rzeczpospolita (Polşa):

- Bu dəfə özünü kişi kimi aparmalısan, cəsarətlə. Mən Putinə böyük hörmətlə yanaşırdım, onu orda-burda dəstəklədim, amma o, çox uzağa getdi. İndi geri çəkilə bilməzsən. İndi ona göz yumsaq hər növbəti hücum əvvəlkindən daha pis olacaq" . - Bu fikirləri Polşanın keçmiş prezidenti Lex Valensa "Rzeczpospolita" qəzetinə müsahibəsində deyib və əlavə edib ki, "bütün dünya birləşməli və Ukraynaya zərbə endirməsinə imkan verilməməlidir".

"Əgər Putin Kiyevə hücum edərsə, dərhal cavab verilməlidir: Moskvaya zərbə. Biz hazırlaşmalıyıq və ona bunu etməyə imkan verməməliyik", - siyasətçi deyib. O, Ukrayna böhranı kontekstində Avropa İttifaqının mövqeyi, eləcə də Fransa və Almaniyanın biznes maraqları ilə bağlı sualı cavablandırarkən bildirib: "Əgər biz indi Putinə Ukraynaya hücum etməyə icazə versək, son nəticədə biznesdən heç nə qalmayacaq"

## ■ Haber7 (Türkiyə):

- Aydındır ki, Putin Ukrayna böhranında geri addım atmayacaq və Vaşinqton, görünür, bir qədər geri çəkilir, - deyə "Haber7" yazır.

Məqalə müəllifi bu qənaətə Makronun Moskvaya "uğursuz" səfərindən sonra, Fransa prezidentinin Rusiya liderinin əsas sualına cavab verə bilmədiyi zaman gəlir. Jurnalist qeyd edir ki, Amerika bu gün təxribatçı ritorikadan əl çəkməyə məcburdur. Onun fikrincə, ABŞ-ın hesablaması başa düşüləndir. Putin çox açıq şəkildə dedi: "Müharibə". Müharibə ilə bağlı ən çox səs-küy salan ABŞ, deyəsən, geri addım atmağa başlayır.

## ■ The National Interest (ABŞ):

- Hərbi ekspert Daniel De Petris "The National Interest"in Amerika nəşri üçün Ukraynanın Rusiya ilə birbaşa hərbi toqquşma imkanlarını təhlil edib.

"Rusiya son üç ayı Rusiya-Ukrayna sərhədi bölgəsində güclü hərbi güc yaratmağa sərf edib. Təxminən 130 min rus əsgəri Ukraynanın quru sərhədinin üç tərəfində - şərqdə Rusiya materikindən şimalda Belarusiyaya qədər yerləşib. Rusiya hərbçiləri bu əraziyə tanklar, artilleriya, piyada döyüş maşınları, reaktiv yaylım atəşi sistemləri və hava hücumundan müdafiə sistemləri göndəriblər ki, onların da bəziləri Rusiyanın Uzaq Şərqdəki bazalarındandır", - De Petris yazır.

O, həmçinin Ukraynanın hərbi qüdrəti ilə müqayisə aparıb - qeyd edib ki, 2014-cü illə müqayisədə Ukrayna Silahlı Qüvvələri xeyli yaxşı təchiz olunub və təlim keçib, Rusiya Silahlı Qüvvələri bütün say və keyfiyyət göstəricilərinə görə Ukraynadan üstündür. İlk növbədə, De Petris qeyd edir ki, Ukrayna aviasiyası Rusiya Aerokosmik Qüvvələrinə qarşı dura bilməyəcək.

✍ *Azad Əliyev*

# “Media haqqında” yeni qanun

## Müzakirə

***Prezident İlham Əliyev “Media haqqında” Azərbaycan Respublikasının Qanununu təsdiqlədi. Qanun media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir. Elə isə gəlin görək, yeni qanun media mütəxəssislərini qane edirmi? Yeni qanundan sonra kütləvi informasiya vasitələrinin fəaliyyətində hansı yenilikləri görə bilərik? Jurnalistlərin sosial rifahının yüksəldilməsi üçün qanun özündə nələri cəmləşdirir? Hafta.az-ın əməkdaşı bu və digər suallara aydınlıq gətirmək üçün mütəxəssislərə müraciət etdi.***



“

*Qanunda ən çox diqqətimi çəkən məqam dövlət-media və cəmiyyət-media münasibətlərinin tənzimlənməsi məsələsi, həmçinin informasiya və iş prosesi ilə bağlı tələblərin konkretləşdirilməsidir*

■ **Vüqar Ziféroğlu, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru:**

- “Media haqqında” yeni qanun bütün tələblərə cavab verir. Görünür, kifayət qədər ciddi əmək sərf edilib. Bu, müasir dövr üçün aktual olan məqamları özündə əks etdirən qanundur. Qanunla tanış olduğumuz zaman görürük ki, bu həm media subyektlərinin dəqiq təsnifatını verir, həm də sosial prioritet ön planda olur. Dövlət-media və media-cəmiyyət münasibətlərinin tənzimlənməsi, həmçinin cəmiyyət üçün aktual olan bir sıra məqamlar açıq şəkildə öz əksini tapır. Nəzərə almaq lazımdır ki, “media haqqında” qanun bundan əvvəlki dövrlərdə kütləvi informasiya vasitələrinin tənzimlənməsini hüquqi cəhətdən həyata keçirən bir neçə qanunun ümumiləşmiş vahid forması kimi ortaya çıxır. Gün-gündən inkişaf edən media sahəsinə yeni qanun olduqca müsbət təsir göstərəcək. Burada bir sıra yeniliklər var. Məsələn, media savadlılığını buna misal gətirmək olar.

Bizdə indiyə qədər istər kütləvi informasiya vasitələri haqqında, istərsə də bu fəaliyyət növünə dolayısı ilə aid ola biləcək qanunvericilik aktlarında bu cür müasir məqamların əksini tapmasının şahid olmamışdıq. Hesab edirəm ki, kifayət qədər maraqlı və müasir tələblərə cavab verən qanundur. Media sürətlə dəyişən sahədir. Buna görə də gələcəkdə müəyyən yeniliklər olarsa, qanunda yəqin ki, bu öz əksini tapacaq. Qanunda ən çox diqqətimi çəkən məqam dövlət-media və cəmiyyət-media münasibətlərinin tənzimlənməsi məsələsi, həmçinin informasiya və iş prosesi ilə bağlı tələblərin konkretləşdirilməsidir. Bunlardan başqa media savadlılığı kimi vacib məsələlərin qanunvericiliyə gətirilməsi də diqqət cəlb edən müsbət hallardan biridir. Belə qanunun qəbul edilməsi müəyyən mənada jurnalistin fəaliyyətinin hüquqi müstəvidə daha aydın, konkret və azad olması cəhətdən çox əhəmiyyətlidir. Jurnalistikamızın hazırkı vəziyyətinə müsbət təsirləri olacaq. Media istənilən dövlət və cəmiyyət üçün ciddi strateji əhəmiyyəti olan sahədir. Müasir dövrdə informasiya ən ciddi təsir vasitəsi, həm də silahdır. Təsadüfi deyil ki, bu gün “informasiya ekologiyası”, “informasiya müharibəsi” kimi anlayışlardan danışırıq. Üstəlik, bu tək bizdə yox, beynəlxalq jurnalistikada da ən vacib problemlərdir.



### Nələr dəyişəcək?

***Qanunun media sahəsinə gətirəcəyi yeniliklər və gözləntilərdən danışdıq. Elə isə gəlin görək. burada jurnalistlərin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün nələr nəzərdə tutulur.***

■ **Xalid Kərimli, iqtisadçı ekspert:**

- “Media haqqında” qanunun 76-cı maddəsində media reyestrinə daxil edilmiş şəxslər üçün güzəştlər və imtiyazlar müəyyənləşib. Güzəştlərin olunması əsasən bir neçə istiqamətdə nəzərdə tutulub. İlk növbədə, media orqanlarının maddi vəziyyətini yaxşılaşdırmaq üçün onlara sifarişlərin verilməsidir. Media orqanının gəlirlərini artırmaq məqsədilə onlara elanların, reklamların verilməsi nəzərdə tutulur. Həmçinin ölkədə təşkil olunan təlimlərdə media nümayəndələrinin güzəştli, ödənişsiz iştirakının təmin edilməsi məsələləri qanunda öz əksini tapır. Dövlət tərəfindən həyata keçirilən layihələrdə media qurumlarının və yaxud da jurnalistlərin iştirakının təmin edilməsi də qanunda göstərilib. Qanunda diqqət çəkən ən əsas məqamlardan biri güzəştli kreditlərlə bağlıdır. Burada media haqqında qanunun qəbulu ilə paralel olaraq İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına verilən ipoteka kreditinin



“

*Əvvəllər güzəştlərdən yararlana bilənlər şəhid ailələri, məcburi köçkünlər, dövlət qulluğunda işləyənlər, alimlər idi, indi isə bu kateqoriyaya jurnalistlər də aid edilir*

qaydalarında güzəştli şəxslər siyahısına daxil edilən şəxslərin siyahısında düzəlişlər olunub. Yeniliyə əsasən media sahəsində fəaliyyət göstərən jurnalistlər güzəştli kredit alma kateqoriyasına şamil edilir. Bunun üçün şərt nədir? Əgər gənc (35 yaşa qədər) ailənin üzvü ya ər, ya da arvad media sahəsində işləyirsə, həmin ailə güzəştli kredit almaq imkanına sahib olur.

Şəxsdən minimum 5 illik iş təcrübəsi tələb olunur. Burada media reyestrinə daxil olanlardan söhbət gedir. Jurnalist kimi fəaliyyət göstərib reyestrə daxil olmayanlar güzəştlərdən yararlana bilməyəcəklər. Gənc olmayan, buna baxmayaraq, azı, 15 il media sahəsində təcrübəyə sahib, reyestrə daxil şəxs də güzəştli kredit götürmək imkanına malikdir. Güzəştli ipoteka krediti mənzil şəraitinin yaxşılaşdırılması üçündür.

Güzəştli ipoteka kreditinin adidən fərqi nədir? Adi kreditdə faiz 8 olursa, güzəştlidə bu, iki dəfə azdır. Həmçinin güzəştli ipoteka krediti zamanı minimal ilkin ödəniş 10%, adidə isə 15%-dir. İpoteka krediti zamanı müddətdə də güzəşt tətbiq olunur. Belə ki, güzəştli kreditlərdə adidən fərqli olaraq maksimal müddət 30 ildir. Məbləğ məhdudiyyəti isə 100000 manatdır. Mediada işləyən insanların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün dövlət imkanlar yaratsa da, burada əsas amillər media orqanından asılıdır.

Əvvəllər güzəştlərdən yararlana bilənlər şəhid ailələri, məcburi köçkünlər, dövlət qulluğunda işləyənlər, alimlər idi, indi isə bu kateqoriyaya jurnalistlər də aid edilir. Ümumiyyətlə, mediada işləyən insanların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün dövlət imkanlar yaradır. Lakin əsas məsələlər reklam bazarının, rəqabətin vəziyyətindən asılıdır. Ümumi bazar yaxşı olanda media sahəsində vəziyyət də yaxşı olur.

✍ ***Banu***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Yeni qanunun hədəfləri



**Natiq Məmmədli,**
MEDİA-nın Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri

***”Kifayət qədər müxtəlif fikirlərin eşidildiyi və az qala bir ilə yaxın davam edən müzakirələrdən sonra “Media haqqında” Qanun artıq qüvvəyə mindi. Praqmatik fikirlər də eşitdik, sərt, bəzən barışmaz və amansız iradlar da, hətta təhqirlər, ələsalmalar da.***

Oxuyub danışanların da səsini duyurduq, “oxumamışam amma ittiham edirəm” ritorikasına köklənmişlərin də. Reallığın gözünə dik baxan və bu sərt reallığı bizə də açıq şəkildə ifadə edən uzun illərin media adamlarının narahatlığı qanundan daha çox belə bir niyyətin nə dərəcədə səmimi olması ilə bağlı idi. Onlar bir qayda olaraq qanunun maddələrinə yox keçmişin xoş olmayan xatirələrinə istinad edirdilər. Yəni mediamızın intellektual baqajında nə vardısa, hamısını qanunun müzakirəsi zamanı nümayiş etdirə bildi. Biz də öz növbəmizdə cavabsız sual buraxmadıq. İşimizin düz və lazımlı olduğuna inanırdıq. Eşitdiyimiz heç bir fikir bizim üçün gözlənilməz deyildi, çünki ondan da sərt fikirləri öz aramızda özümüz səsləndirirdik və saatlarla yox günlərlə sürən bu müzakirələrdə həmin sərt sualların tutarlı cavablarını da özümüz tapırdıq”.

**Hafta.az xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin (MEDİA) Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli bildirib.**

*O, yeni qanunla Agentliyin hədəflərini də açıqlayıb:*

*”Bu qanunla hədəflərimiz nədir və nəyə nail olmaq istəyirik?*

*- Ölkəmizin milli informasiya mühitinin sağlamlaşmasına;*

*- Milli informasiya resurslarımızın güclənməsinə;*

*- Jurnalistika üçün həyati əhəmiyyət daşıyan plüralizmin qorunmasına;*

*- Jurnalistin sosial portretinin formalaşmasına, statusunun və imicinin yaxşılaşmasına, nüfuzunun güclənməsinə;*

*- Özfəaliyyət və qeyri-peşəkarlıqla, peşəkarlığın sərhədlərinin müəyyənləşməsinə;*

*- Mediada layiqli əmək münasibətlərinin möhkəmlənməsinə;*

*- Dövlətin medianın informasiya təminatını yaxşılaşdırmasına;*

*- Medianın iqtisadi müstəqilliyini gücləndirməyə yönəlmiş dövlətin güzəşt və imtiyazların dairəsinin müəyyənləşməsinə”.*

N.Məmmədli qeyd edib ki, “Media haqqında” qanunun imzalanması ilə eyni gündə dövlət jurnalistlərə güzəştli ipotekadan faydalana bilmək hüququ verib.

Onun sözlərinə görə, bu, Azərbaycan Prezidentinin media nümayəndələrinin sosial problemlərinə diqqətinin göstəricisidir:

”Dövlət hər hansı öhdəlik qoymadan özünün qulluqçusu, müəllimi, alimi, xüsusi nailiyyətləri olan idmançısı üçün nəzərdə tutduğu imtiyazları media nümayəndəsinə də şamil etdi. Bu, yalnız sosial siyasət deyil, eyni zamanda jurnalist peşəsinin və bütövlükdə medianın nüfuzunun yüksəldilməsinə yönəlmiş addımdır.

Amma unutmayaq, “Media Qanunu” dövlətin media mühitinə yanaşmasının göstəricisidir. Jurnalist üçün ən böyük dəyər onun təmiz reputasiyasıdır, sözünə olan ictimai etimaddır.

Bunu jurnalist özü qazanır. Qanun isə öz şərəfli missiyasını yerinə yetirməsi üçün jurnalistin yanındadır”.

## Müsahib

**Fevralın 4-də Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilən görüşü müxtəlif aspektlərdə təhlil olunur. Proseslər hansı istiqamətdə cərəyan edir? Mövzu ətrafında suallarımızı “Atlas” Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu cavablandırır:**

# Avropa Qarabağ məsələsinə qarışmaq istəmir



**Elxan Şahinoğlu,**
“Atlas” Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq

***- Fransanın son onlayn görüşdə təşəbbüsü ələ alması Rusiya-Fransa arasında qarşıdurma yarada bilərmi? Bu, Avropa İttifaqı, Azərbaycan, Ermənistan + Fransa münasibətlərinə hansı yeni çalarlar gətirir?***

- Fransa bu ildən başlayaraq Avropa İttifaqına sədrlik edir. Buna görə də müxtəlif istiqamətlərdə fəallıq nümayiş etdirmək məcburiyyətindədir. Fransa tək Ermənistan-Azərbaycan arasında dialoqda deyil, Ukrayna məsələsində də fəallığını artırıb. Digər tərəfdən, aprel ayında Fransada Prezident seçkisidir. Makron öz reytinqini artırmağa çalışır. Onun reytinqi yüksək deyil, bu baxımdan özünün xarici və təhlükəsizlik məsələsin də fəallaşdırıb. Nə qədər ki, erməniпərəst mövqeyindən əl çəkməyib, Fransanın bizim bölgəyə uğur gətirəcəyini zənn etmirəm. Əlbəttə, Fransa ilə normal münasibətlər istəyirik, Fransa Avropa İttifaqının iki aparıcı dövlətindən biridir. Amma görürük ki, bu ölkənin siyasətçiləri Vətən Müharibəsindən sonra da qəti ermənipərəst mövqedən çıxış etməkdə davam edirlər. Prezidentliyə namizəd Azərbaycan qanunlarını, sərhədini pozaraq Qarabağa gedib orada separatçılarla görüşürsə, bu nə deməkdir?.. Fransa birinci növbədə bu revanşizmi dəstəkləyən siyasətindən əl çəkməlidir.

Avropa İttifaqı ilə sıx əməkdaşlığımız var və onun vasitəçiliyindən imtina etmirik. Bundan da əvvəl Brüsseldə görüş oldu və bizim xeyrimizə bəyanat da qəbul edildi. Burada ədalətsiz bir qərarla Ermənistanla müqayisədə Azərbaycana daha az maliyyə ayırmışdılar. O qərarı da ləğv etdilər və Azərbaycana 2 milyard avro ayıracaqlarını dedilər. Avropa İttifaqı ilə bizim bir problem yoxdur, onun vasitəçiliyi davam edə bilər. Fransa ilə bağlı hələ də ciddi problemlər qalır. O ki qaldı Rusiyanın münasibətinə, Fransanın Rusiya ilə əlaqələri problemlidir. Moskva görür ki, Azərbaycan-Fransa münasibətlərində ciddi suallar var. Ona görə də hesab etmirəm ki, Rusiya Fransanın bizim bölgədə fəallığından çox da narahat olsun.

***- Məlumdur ki, 4 tərəfli onlayn görüşdə “Dağlıq Qarabağ münaqişəsi”, “Qarabağ” kimi ifadələr də işlənilməyib, “status” iddiası məsələsinə toxunulmayıb. Görünən odur ki, Avropa Azərbaycanın ərazi bütövlüyü ilə reallıqda barışır...***

- Qarabağ məsələsi bizim daxili işimizdir. Ona görə də heç kəs buna qarışa bilməz. “Status” məsələsini qaldırmaq istəyirdilər, amma bu alınmadı. Onlayn görüşdə də gördük ki, Qarabağla bağlı yalnız bir məsələyə toxundular - o da YUNESKO nümayəndələrinin bölgəyə gəlişi ilə bağlı oldu. Hesab edirəm, bu da ikilistandartdır. Otuz ilə yaxın müddət ərzində işğalda qalan torpaqlara bir nümayəndə göndərmədilər, dağıdılan abidələr, məscidlər haqqında heç bir hesabat hazırlamadılar, amma indi əl-ayağa düşüblər. Bununla bağlı razılıq əldə olunub. Yalnız bu məsələnin müəyyən qədər Qarabağa aidiyyəti ola bilər. Digər məsələlər Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı həllini tapmalı olan işlərdir.

Bizim üçün maraqlı olan əsas məsələ tezliklə sərhədlərin müəyyənləşməsi, sülh sazişinin imzalanması, kommunikasiya xətlərinin açılmasıdır. Bununla bağlı istənilən dövlətin vasitəçiliyini qəbul edə bilərik.

Heç bir dövlət və ya təşkilat Qarabağla bağlı bizə nəyisə diqtə edə bilməz. Bu, işğal dövründə ola bilərdi. İndi artıq biz problemin xeyli hissəsini həll etmişik. Beynəlxalq təşkilatlar, böyük dövlətlər də bununla hesablaşır. Heç kim bizə təsir etmir ki, Minsk qrupu bölgəyə gəlsin, Qarabağın statusu məsələsi müzakirə edilsin. Ermənistanın özü də yorulub. Ermənistanın başı öz problemlərinə qarışıb. Bu saat Ermənistanın Qarabağla bağlı heç bir fikri yoxdur.

***- Erməni mediasında çıxışlar edilir ki, Avropanın qaz, enerji ilə bağlı Azərbaycana ehtiyacı olduğu üçün Ermənistandan üzünü döndərir, Azərbaycanın istədikləri olmağa başlayır. Ermənistan Avropanın Azərbaycanı etibarlı tərəfdaş kimi görməsindən niyə narahatdır?***

- Avropanı düşündürən iki mövzu var: biri Ukrayna-Rusiya müharibəsi ehtimalıdır, biri də Avropanın qaz-enerji tədarükü məsələsidir. Qaz tədarükü məsələsində Azərbaycan Avropaya öz töhfəsini verdi. Avropaya tədarük etdiyimiz qazın faizi haradasa 2-3 faiz arasındadır, amma artırmaq da olar. Bunu Prezident İlham Əliyev Bakıda keçirilən konfransda da qeyd etdi. Avropaya qaz lazımdır, Azərbaycana təzyiq edib Qarabağ məsələsinə qarışmaq istəmir. Bu da bizim maraqlara xidmət edir.

Avropa ilə sıx əməkdaşlığı genişləndirmək və daha çox qaz tədarük etmək istəyirik. Ermənistanın belə bir imkanları yoxdur. Ona görə də Avropa bu günlərdə Azərbaycanla əməkdaşlığa üstünlük verir. Hesab edir ki, o, bu əməkdaşlıqdan faydalana bilər. Rusiya - Ukrayna müharibəsi başlansa, istər-istəməz Rusiyadan qaz tədarükü dayanacaq. Bu, Avropanın donması anlamına gəlir. Qaz tədarükünün, az qala, 40 faizi Rusiyadan gəlir. Bu, böyük rəqəmdir. Düzdür, Azərbaycan Rusiya qazını əvəz edə bilməyəcək, o qədər həcmdə qazımız yoxdur, amma müəyyən qədər artıra bilər ki, Avropanı da bu maraqlandırır. Avropa ilə belə əməkdaşlıq etməliyik ki, bizim daxili işlərə qarışmasın.

“

*Bizim üçün maraqlı olan əsas məsələ tezliklə sərhədlərin müəyyənləşməsi, sülh sazişinin imzalanması, kommunikasiya xətlərinin açılmasıdır*

***- Avropa ilə bu əməkdaşlıq Azərbaycanı Qarabağda hazırkı reallıqda müşahidə olunan Rusiya amilindən qurtara bilərmi?***

- Bu, bir qədər çətin və mürəkkəb məsələdir. Moskvanın cəngindən o zaman qurtaracağıq ki, Rusiya hərbçiləri Qarabağı tərk etsin. Bu, baş verməyənə qədər Rusiyanın Qarabağda təsiri qalacaq. Görürük ki, son vaxtlar yenə təxribatlar başlayır, atəşkəs pozulur, mülki hədəflərə atəş açırlar. Bunların hamısının baiskarı yenə də Rusiyadır.

✍ ***Tahirə***

# Uğurlu biznesi necə qurmalı

## Layihə

**_Dünya praktikası göstərir ki, azad sahibkarlıq dövlətin və cəmiyyətin gələcək inkişafında əhəmiyyətli rola malikdir. Ölkəmizdə sahibkarlığın inkişafına, biznes mühitinin yaxşılaşdırılmasına dövlət tərəfindən daim qayğı göstərilir. Bu məqsədlə sahibkarlığın inkişafı ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli məhsulların istehsalı ölkə Prezidentinin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindən biridir. Azərbaycanın indiyədək bu sahədə əldə etdiyi uğurlar beynəlxalq təşkilatların və maliyyə institutlarının hesabatlarında da öz müsbət əksini tapıb._**




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

Yeri gəlmişkən, ölkəmizdə bu sahədə aparılan islahatların nəticəsi olaraq 2021-ci il ərzində statistik vahidlərin (fərdi sahibkarlar istisna olmaqla) sayı 7,5 faiz artaraq 2022-ci il yanvarın 1-i vəziyyətinə 167 min 140 olub. Dövlət Statistika Komitəsinin məlumatına görə, artım iqtisadiyyatın "Nəqliyyat və anbar təsərrüfatı", "Su təchizatı; tullantıların təmizlənməsi və emalı", "İnformasiya və rabitə", "Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi", "Ticarət; nəqliyyat vasitələrinin təmiri", "Peşə, elmi və texniki fəaliyyət", "Emal sənayesi", "Daşınmaz əmlakla əlaqədar əməliyyatlar", "Turistlərin yerləşdirilməsi və ictimai iaşə" və "Maliyyə və sığorta fəaliyyəti" sahələrində nəzərəçarpacaq dərəcədə olub. "Ticarət; nəqliyyat vasitələrinin təmiri", "Digər sahələrdə xidmətlərin göstərilməsi", "Tikinti", "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" və "Peşə, elmi və texniki fəaliyyət" sahələrindəki statistik vahidlərin xüsusi çəkisi daha yüksəkdir. Xüsusi mülkiyyətə aid olan statistik vahidlərin əsas hissəsi "Ticarət; nəqliyyat vasitələrinin təmiri" (31,1 faiz), "Digər sahələrdə xidmətlərin göstərilməsi" (17,6 faiz), "Tikinti" (9,9 faiz), "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" (7,3 faiz), "Peşə, elmi və texniki fəaliyyət" (7,1 faiz) və "Emal sənayesi" (5,9 faiz) sahələrinin payına düşür. Reyestrdə qeydiyyatdan keçmiş statistik vahidlərdən tam xarici investisiyalı və birgə müəssisələr əsasən Türkiyə (24,1 faiz), İran (11,1 faiz), Rusiya (5,4 faiz), Böyük Britaniya (4,2 faiz), ABŞ (1,8 faiz) və Almaniya (1,2 faiz) kimi ölkələrin sahibkarları tərəfindən yaradılıb. 2021-ci il ərzində yeni yaradılmış statistik vahidlərin 98,8 faizi xüsusi mülkiyyətli (o cümlədən 7,5 faizi tam xarici investisiyalı, 1,7 faizi birgə mülkiyyətli), 1,1 faizi dövlət mülkiyyətli, 0,1 faizi isə bələdiyyə mülkiyyətli müəssisələrin payına düşür. Qeydiyyatda olan statistik vahidlərin 61,9 faizi Bakıda yerləşib. Hesabat dövründə yeni yaradılmış statistik vahidlərin 81,7 faizi Bakıda, 6,2 faizi Abşeron-Xızı, 1,8 faizi Gəncə-Daşkəsən, 1,7 faizi Lənkəran-Astara, 1,4 faizi Şəki-Zaqatala, hər birində 1,2 faizi olmaqla Qarabağ və Mərkəzi Aran, qalanları isə digər iqtisadi rayonlarda qeydiyyata alınıblar. Statistik vahidlərin yaradılması prosesi Bakı şəhərində (9,6 faiz), Abşeron-Xızı iqtisadi rayonunda (6,8 faiz), Gəncə-Daşkəsən və Şərqi Zəngəzur iqtisadi rayonlarında (hər birində 4,3 faiz), Qarabağ, Qazax-Tovuz və Şəki-Zaqatala iqtisadi rayonlarında (hər birində 3,1 faiz), Lənkəran-Astara və Mərkəzi Aran iqtisadi rayonlarında (hər birində 2,8 faiz) daha fəal olub. Göründüyü kimi, 2022-ci il yanvarın 1-i vəziyyətinə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 93,3 faizini mikro sahibkarlıq subyektləri təşkil etmiş və onların əsas hissəsi ticarət (33,2 faiz), digər sahələrdə xidmətlərin göstərilməsi (14,5 faiz), tikinti (10,3 faiz) və kənd təsərrüfatı (7,6 faiz) sahələrində yaradılıb. 2022-ci il yanvarın 1-i vəziyyətinə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 4,5 faizini kiçik sahibkarlıq subyektləri təşkil edib və onların əsas hissəsi ticarət (25,2 faiz), tikinti (13,3 faiz), emal sənayesi (10,2 faiz) və peşə, elmi və texniki fəaliyyət (7,7 faiz) sahələrində yaradılıb. 2022-ci il yanvarın 1-i vəziyyətinə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 1,8 faizini orta sahibkarlıq subyektləri təşkil edib və onların əsas hissəsi ticarət (19,7 faiz), tikinti (16,8 faiz), emal sənayesi (12,8 faiz), nəqliyyat və anbar təsərrüfatı və peşə, elmi və texniki fəaliyyət (hər birində 6,4 faiz) sahələrində yaradılıb. 2022-ci il yanvarın 1-i vəziyyətinə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 0,4 faizini iri sahibkarlıq subyektləri təşkil edib və onların əsas hissəsi ticarət (17,5 faiz), emal sənayesi (16,9 faiz), tikinti (12,4 faiz) və nəqliyyat və anbar təsərrüfatı (8,5 faiz) sahələrində yaradılıb. Mikrosahibkarlıq subyektlərinin 65,3 faizi Bakıda, 7 faizi Abşeron-Xızı, 4,3 faizi Lənkəran-Astara, 3,3 faizi Mil-Muğan, qalanları isə digər iqtisadi rayonlarda yaradılıb. Kiçik sahibkarlıq subyektlərinin 64 faizi Bakıda, 6,7 faizi Abşeron-Xızı, 3,8 faizi Gəncə-Daşkəsən, 3,6 faizi Mərkəzi Aran, qalanları isə digər iqtisadi rayonlarda açılıb. Orta sahibkarlıq subyektlərinin 59,1 faizi Bakıda, 6,4 faizi Abşeron-Xızı, 4,3 faizi Şəki-Zaqatala, 4,2 faizi Gəncə-Daşkəsən, qalanları isə digər iqtisadi rayonlardadır. İri sahibkarlıq subyektlərinin 72,5 faizi Bakıda, 6,9 faizi Abşeron-Xızı, 4,3 faizi Gəncə-Daşkəsən, qalanları isə digər iqtisadi rayonlarda yaradılıb. Maraqlıdır, görəsən Azərbaycanda uğurlu biznes qurmaq üçün hansı addımları atmaq lazımdır? Hansı sahədə iş qurmaq daha perspektivlidir?

> *Yaxşı olar ki, nümunəvi sahibkarlıq subyektlərinin reytinqi müəyyənləşdirilsin və nümunəvi vergi ödəyicisi və nümunəvi sahibkarlar kimi cəmiyyətə elan olunsunlar*



**Ruslan Atakişiyev,**
iqtisadçı

Qeyd edək ki, mütəxəssislər bu məsələdə ilk növbədə sahibkarlıq fəaliyyəti zamanı görəcəyiniz işin düzgün və hərtərəfli planlaşdırılmasını tövsiyyə edirlər. Onların fikrincə, biznesin düzgün planlaşdırılması uğurlu fəaliyyətin təməlidir. Eyni zamanda, perspektivli iş qurmaq üçün həmin sahəyə dərindən bələd olmaq lazımdır. Adətən, kiçik sahibkarlıqla məşğul olan şəxslər təcrübəsi və bacarığı olan sahələrdə fəaliyyət göstərirlər. Misal üçün, kənd təsərrüfatı sahəsində müvafiq bilik və təcrübəyə malik olan şəxslər sahibkarlıq fəaliyyətini bu istiqamətdə qurması onlara digər təcrübəsiz rəqiblər qarşısında bir sıra üstünlüklər verir. Eyni zamanda, biznesinizin uzunömürlü olması üçün bazarın ciddi şəkildə təhlil edilməsi vacib sayılır. Mütəxəssislər bildirirlər ki, bu mərhələdə sahibkar təklif edəcəyi məhsulun potensial müştərilərinin sayı, oxşar məhsul (iş, xidmət) təklif edən rəqib sahibkarlar barədə məlumatları təhlil edir və əldə etdiyi məlumatlar əsasında müvafiq qərarlar verir.

Biznesi ətraflı planlaşdırdıqdan sonra sahibkarlıq fəaliyyətinə başlamazdan əvvəl sahibkar ilk növbədə vergi ödəyicisi kimi vergi orqanında qeydiyyata alınmalı, fəaliyyətinin maliyyələşdirilməsi üçün maliyyə vəsaitinin cəlb edilməsi tələb olunduğu halda, onun əldə edilməsi ilə bağlı müvafiq tədbirlər görməli, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı isə əldə etdiyi gəlirdən vergiləri hesablamalı, bəyan etməli və dövlət büdcəsinə ödəməlidir. Fiziki şəxs sahibkarlıq fəaliyyəti ilə fərdi sahibkar kimi və ya hüquqi şəxs yaradaraq məşğul ola bilər.

Onu da qeyd edək ki, ölkədə sahibkarların işgüzar aktivliyinin artırılması, onlara zəruri nəzəri biliklərin verilməsi, vərdişlərin və bacarıqların aşılanması istiqamətində, digər dövlət orqanları ilə, o cümlədən İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Maliyyə Nazirliyi, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə Bakı şəhərində və regionlarda sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərlə, habelə sahibkarlıq fəaliyyətinə yeni başlamaq istəyən işgüzar şəxslərlə biznesə necə başlanılması, vergilərin və sosial sığorta ayırmalarının hesablanması və ödənilməsi, vergi və mühasibat uçotunun aparılması istiqamətində maarifləndirici görüşlərin, treninqlərin keçirilməsi və məsləhət xidmətlərinin göstərilməsi istiqamətində tədbirlər həyata keçirilir.

### Ekspert rəyi...

**■ Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri, iqtisadçı Ruslan Atakişiyev bildirib ki, sahibkar deyəndə qaydalara riayət edən və rəqabət şərtlərini düzgün şəkildə icra edən, ədalətsiz, haqsız rəqabətə girişməyən sahibkarlıq subyektləri nəzərdə tutulmalıdır:**

"Rahat biznes qurmaq üçün qaydalara əməl etmək lazımdır. Əgər sahibkarlıq subyektləri biznesə və sahibkarlığa yaraşmayan yollarla müəyyən addımlar atırlarsa, onlara qarşı mübarizə aparılmalıdır. Çünki, nümunəvi olan və qaydalara riayət edən sahibkarlar o mühitin tamamilə şəffaflığını anlamalıdırlar ki, bu onların xeyrinə işləyir, onların da əsas vəzifəsi işlərini gözəl bir şəkildə qurub, yalnız üzərlərinə düşən vergi və sosial ödəmələri həyata keçirmələridir.

Yaxşı olar ki, nümunəvi sahibkarlıq subyektlərinin reytinqi müəyyənləşdirilsin və nümunəvi vergi ödəyicisi və nümunəvi sahibkarlar kimi cəmiyyətə elan olunsunlar. Bu, sahibkarların işinə böyük qiymət olacaq. İkinci məsələ, "kölgə iqtisadiyyatı"nda mövcud olan "işbazlar"a qarşı və onların "kölgə"dən çıxarılması istiqamətində iş aparılmalıdır".

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ 2021-ci ildə Azərbaycanda aktiv vergi ödəyicilərinin sayı 8%-dək artaraq 665 mini ötüb. Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov "Twitter" hesabında yazıb. Nazir əlavə edib ki, aktiv hüquqi şəxslərin sayı ilin sonuna 100 mini keçib.

■ Azərbaycan Boks Federasiyasının (ABF) hesabat-seçki konfransı keçirilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycan Boks Federasiyasının yeni prezidenti seçilib. Konfransda, həmçinin Məhərrəm Talıbov və Vüsal Nəsirli federasiyanın vitse-prezidentləri, Fuad Hacıyev və Rövşən Hüseynov isə İdarə Heyətinə üzv seçiliblər.

■ Polis polkovniki Vəfalı Həsənalıyev Ağdaş Rayon Polis Şöbəsinə rəis təyin edilib. Bu barədə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov müvafiq əmr imzalayıb. O, bundan əvvəl Binəqədi Rayon Polis İdarəsinin əməliyyat işləri üzrə rəis müavini vəzifədən çalışıb. Qeyd edək ki, əvvəlki rəis müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-polkovnik Kərəm Mustafayevin qardaşı Rasim Mustafayev idi.



■ Millət vəkili, Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" yubiley medalı ilə təltif olunub. Bu barədə deputat sosial şəbəkədə paylaşım edib. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 27.12.2021-ci il tarixli 1532 saylı Fərmanı ilə yubiley medalı ilə təltif etmək səlahiyyətlərini Dövlət Gömrük Komitəsi daşıyır.

■ "Vaksinasiyada aktiv iştirak etmək lazımdır ki, üzümüzə gələn dalğalarda daha ağır xəstələnməyək". Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov deyib. O bildirib ki, hətta buster doza insanlarda immuniteti 2 həftə sonra gücləndirir: "Güman edirik ki, sonuncu dalğa daha qısa müddətdə olacaq. Bu gün vurulan buster doza belə növbəti dalğadan qorunmaq üçün əsasdır".



■ Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili Tiflisdə məhkəmə zalında Ukrayna himnini ifa edib. Saakaşvili çıxışı zamanı ona qarşı səsləndirilən bütün ittihamların əsassız olduğunu bildirib. Keçmiş prezident prokuror və hakimləri korrupsiyada ittiham edib.

■ Rusiya Prezidenti Vladimir Putin Türkiyəyə fevralın 14-də səfər edəcək. Bu barədə RİA Novosti diplomatik mənbəyə istinadən xəbər verir. Bundan öncə, Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Putinin Türkiyəyə səfər tarixinin dəqiqləşməadiyini söyləmişdi.

■ Danimarka kraliçası II Marqrete koronavirusa yoluxub. Bu barədə kral sarayının mətbuat xidməti bildirib. Qeyd olunur ki, 81 yaşlı kraliçanın ötən gün verdiyi test müsbət nəticələnib. Onun xəstəliyi yüngül keçirdiyi bildirilir. Bir neçə gün əvvəl kraliçanın nəvəsi şahzadə Kristian koronavirusa yoluxmuşdu.

# Türkiyə-Azərbaycan strateji müttəfiqliyi

**Türkiyə ilə Azərbaycan arasında "İki dövlət, bir millət" ruhuna söykənən qardaşlıq hərbi müstəvidə də güclənməkdədir. Şuşa Bəyannaməsinin imzalanması ilə iki ölkənin əlaqələri müttəfiqlik səviyyəsinə yüksəlib ki, elə bu çərçivədə də Türkiyə və Azərbaycan Milli Təhlükəsizlik Şuraları (MTŞ) birgə toplantı keçirəcək.**

Davamlı olaraq keçiriləcək MTŞ toplantılarında ixtilaflar, bölgəsəl və qlobal təhlükəsizliyə dair məsələlərin danışılması və çözüm yolunun aranmasına səy göstərmək nəzərdə tutulub. Türkiyə xarici işlər nazirinin müavini Yavuz Səlim Kıran, Böyük Millət Məclisinin Xarici Əlaqələr Komissiyasında və ardınca Məclisdə təsdiqlənən Şuşa Bəyannaməsinin detalları barədə məlumat verib.

Bildirib ki, Qarabağın işğalının sona çatması ilə yaranan bu reallıq bölgəyə yeni fürsətlər gətirəcək. "Can Azərbaycanla "Bir millət, iki dövlət" ruhunda yaranan müştərək mədəniyyət, dil və tariximizdən güc alan qardaşlığımız bir çox ölkəyə örnəkdir. Azərbaycan bizim yalnız qardaşımız deyil, eyni zamanda ən yaxın ortağımız, müttəfiqimizdir", - Yavuz Səlim Kıran deyib.

Kıran bildirib ki, işğal altındakı Qarabağın geri alınmasında örnək həmrəylik sərgilənib və türk əsgəri hələ də Ağdamdakı ortaq hərbi mərkəzdə təhlükəsizliyin təsisi üçün vacib işlər görür. İki ölkə liderlərinin qarşılıqlı ziyarətləri və həyata keçirilməkdə olan layihələrdən söz açan nazir müavini əlavə edib ki, təsdiqlənən Şuşa Bəyannaməsi ilə geniş və çoxşaxəli əlaqələr daha güclü çərçivəyə oturdulub. O, Şuşa Bəyannaməsinin 2010-cu ildə imzalanmış "Strateji Ortaqlıq və Qarşılıqlı Yardım Anlaşması"na istinad etdiyini, Azərbaycanla əməkdaşlığı gücləndirməyi, regional təhlükəsizlik, rifah və sabitliyə töhfə verməyi hədəflədiyini deyib. Şuşa Bəyannaməsinin detallarından söz açan nazir müavini bildirib ki, müttəfiqlik əlaqələrinin qurulmasının siyasi və hüquqi mexanizmləri məhz Şuşa Bəyannaməsində müəyyən edilib. "Bu çərçivədə müstəqilliyimizə və suverenliyimizə, ölkələrimizin ərazi bütövlüyünə yönələn hər hansı təhlükə olarsa, BMT-nin nizamnaməsinə uyğun şəkildə qarşılıqlı dəstək vermə və silahlı qüvvələrimizin koordinasiyasını təşkil etmə öhdəliyini öz üzərimizə götürmüşük. İxtilaflar, regional və qlobal təhlükəsizliyə dair məsələlərin həllinə ortaq səy göstərmək üçün də birgə addım atacağıq. Bundan sonra sürəkli olaraq Milli Təhlükəsizlik Şuralarının ortaq toplantılarını keçirməyi planlaşdırırıq", - nazir müavini deyib. Onun sözlərinə görə, silahlı qüvvələrin yenidən qurulması və müasirləşdirilməsi üçün birgə çalışılacaq. Müdafiə sənayesi qurumları arasında əməkdaşlığın genişləndirilməsini dəstəkləmək, texnologiya sahəsində birlikdə çalışmaq və ortaq layihələrin icrasını təşviq etmək üçün də işlər görüləcək.

> *Şuşa Bəyannaməsi ilə geniş və çoxşaxəli əlaqələr daha güclü çərçivəyə oturdulub*



**Yavuz Səlim Kıran,**
Türkiyə xarici işlər nazirinin müavini

"Hərbi öhdəliklərdə ən vacib hüsuslardan biri də minaların təmizlənməsidir. İndiyədək göstərdiyimiz birlik sayəsində Qarabağda 132 kvadratkilometrlik ərazinin minadan təmizlənməsini başa çatdırdıq və işlər indi də davam etdirilir. Kibertəhlükəsizlik sahəsində də ortaq elmi araşdırmalar aparmaq və mütəxəssislər hazırlamaq barədə öhdəliklərimiz var" deyən dövlət rəsmisi əlavə edib ki, bütün bu əməkdaşlıq sferasında iqtisadi, ticarət, nəqliyyat və enerji sahələrinin də xüsusi yeri var. Bu müstəvidə ixracatın şaxələndirilməsi, gələcəkdə ortaq istehsal sahələrinin yaradılması və daha əlverişli sərmayə mühitinin formalaşdırılması üçün addımlar atılacaq. Cənab Kıran deyib ki, ağıllı texnologiyadan istifadə edərək tranzit nəqliyyat potensialının ortaya çıxarmaqdadırlar. Məsələn, Zəngəzur dəhlizi açılandan sonra, davamı olaraq Naxçıvan-Qars dəmir yolunun tikintisinə də başlanılacaq. Türkiyə - Azərbaycan müttəfiqliyinin bir məsuliyyəti də terrorla, insan qaçaqmalçılığı, qanunsuz miqrasiya, cinayətkar qruplaşmalarla və kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə aparmaqdır.

"Türk dünyasının daha sıx birləşdirilməsi, türk mədəniyyətinin və mirasının qorunması, tanıdılması sahələrində işləri daha da sürətləndirəcəyik. Bakıda qurulması nəzərdə tutulan Türkiyə - Azərbaycan ortaq universiteti ilə bağlı anlaşma layihəsini Azərbaycan tərəfinə təqdim etmişik" deyən cənab Kıran son olaraq bildirib ki, Məclis komissiyasında, Türkiyə Milli Müdafiə Nazirliyi, Şuşa Bəyannaməsinə dair Xarici İşlər Nazirliyinin mövqeyini dəstəkləyib. Milli Müdafiə Nazirliyinin Hüquq Xidmətləri şöbəsinin müdir əvəzi Filiz Toprak Aydın, Xarici İşlər Nazirliyinin mövqeyi ilə birmənalı şəkildə razı olduqlarını deyib.

✍ **Vüsal**

# Evi plana düşənlər



## Sosial

***Son illər paytaxtda yaşı bir əsrdən çox və qəzalı vəziyyətdə olan binalar sökülür. Məsələn, tək paytaxtın Nərimanov rayonu ərazisində 219 belə bina söküləcək. Söküntü işlərinin aparıldığı ərazilərdə 12 -17 mərtəbəli binalar tikiləcək və həmin binalarda sakinlərə daha geniş, təmirli və mətbəx mebeli ilə təchiz edilmiş mənzillər vəd edilib. Artıq rayonun bəzi ərazisində söküntü işləri yekunlaşıb və yeni binalar tikilir. Tikinti işi özəl şirkətlər tərəfindən İcra hakimiyyətinin nəzarəti ilə aparılır. Tikintinin aparıldığı müddətdə sakinlərin evlərinin kvadratına uyğun kirayə pulu ödənilir. Sakinlərin köçürülməsi isə mərhələlərlə həyata keçirilir.***

Paytaxtın Nizami rayonu ərazisində də hazırda yaşayışa tam yararsız olan 11 bina sökülür. Yararsız binalardan biri də Rüstəm Rüstəmov 88-98 ünvanında yerləşən binadır.1960-cı ildə istifadəyə verilən və indiyədək 90 ailənin yaşadığı bina yaşayış üçün tam yararsız olduğundan söküləcək və yerində müasir standartlara cavab verən yeni binanın inşa ediləcəyi bildirilir. Söküntü ilə bağlı sakinlərə daşınma pulu ödəniləcək. Həmçinin proses davam edənədək 90 ailənin 2 il müddətində aylıq 350 manat kirayə haqqı qarşılanacaq. Qeyd edək ki, ərazidəki 11 bina mərhələli şəkildə söküləcək. İlkin mərhələdə 4, növbəti



**Sahibkar-mülkiyyətçi davasında kim haqlıdır**

mərhələdə isə 6 bina söküləcək.

Məlumat üçün bildirək ki, hazırda Bakının Suraxanı, Nəsimi, Xətai, Nərimanov, Nizami, Yasamal, Səbail, Pirallahı, Xəzər rayonlarında Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq köhnə binaların sökülməsi prosesi gedir. Belə ki, hökumətin 2016-cı ildə verdiyi qərara görə, yerli icra hakimiyyətləri 5 il müddətinə mülkü, mənzil, şəhərsalma və tikinti qanunvericiliklərinin tələblərinə əməl etməklə, şəhərin ümumi görünüşünə xələl gətirən, qəzalı vəziyyətdə və mövcud şəhərsalma normalarına cavab verməyən Suraxanı rayonu üzrə 3828 nəfərin yaşadığı, 1127 mənzildən ibarət olan uzunmüddətli istismar nəticəsində yararsız vəziyyətə düşmüş 63 yaşayış binasının, Nəsimi rayonu üzrə XIX əsrin sonları və ötən əsrin əvvəllərində tikilmiş, 16206 nəfərin yaşadığı 5771 mənzildən ibarət 226 yaşayış binasının, Xətai rayonu üzrə 6956 nəfərin yaşadığı 2016 mənzildən ibarət 99 yaşayış binasının, Nərimanov rayonu üzrə 11031 nəfərin yaşadığı 3028 mənzildən ibarət 219 yaşayış binasının, Nizami rayonu üzrə keçən əsrin 50-60-cı illərində inşa edilmiş, 5395 nəfərin yaşadığı 1779 mənzildən ibarət 131 yaşayış binasının, Yasamal rayonu üzrə 1257 nəfərin yaşadığı 427 mənzildən ibarət 18 yaşayış binasının, Səbail rayonu üzrə 1819 nəfərin yaşadığı 535 mənzildən ibarət 41 yaşayış binasının, Pirallahı rayonu üzrə 3131 nəfərin yaşadığı 1174 mənzildən ibarət 297 yaşayış binasının, habelə bu rayonların ərazisində yaşayış üçün yararsız olan digər binaların, sosial və digər təyinatlı qeyri - yaşayış obyektlərinin sökülməsini və yenidən qurulmasını, ərazi və ərazi hissələrinin yenidən qurulması üçün tələb olunan ərazi planlaşdırılma sənədlərinin hazırlanmasını (tikinti layihələrinin işlənməsindən əvvəl) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılmaqla təsdiqini, habelə yeni tikiləcək yaşayış binalarının və qeyri-yaşayış obyektlərinin layihələrinə razılığın, tikintiyə və tikinti obyektinin istismarına icazənin verilməsini, həmçinin bu məqsədlə dövlət mülkiyyətində olan torpaqların daimi istifadəyə və icarəyə verilməsini həyata keçirməlidir. İcra hakimiyyətləri mənzil fondunun yenilənməsi, sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə tikinti şirkətləri tərəfindən öz vəsaitləri və ya cəlb ediləcək kredit vəsaitləri hesabına inşa olunacaq çoxmənzilli yaşayış binaları üçün qəzalı vəziyyətdə olan söküləcək tikililərin ərazilərindən istifadə edilməsinə, hüquqi və fiziki şəxslərin mülkiyyətində və ya istifadəsində olan torpaq sahələrinin mülki qanunvericiliyə uyğun olaraq onların razılığı ilə dəyəri ödənilməklə əldə edilməsinə və ya həmin torpaq sahələrinin əvəzləşdirilməsinə şəraitin yaradılmasını, qanunvericiliyin tələblərinə uyğun olaraq qəzalı vəziyyətdə olan binaları sökərək, onların yerində yeni yaşayış binası tikməyi öhdəsinə götürən tikinti şirkətlərinə yeni yaşayış binası tikilənədək bu binalardan köçürülən sakinlərin müvəqqəti olaraq kirayə edilmiş mənzillərdə yerləşdirilməsi üçün lazımi maliyyə vəsaitinin ödənilməsini və həmin sakinlərə sökülmüş tikililərin yerində yeni tikiləcək yaşayış binasında müvafiq mənzillərin ayrılmasını, tikintiyə başlamazdan əvvəl tikiləcək binaların ərazidə yerləşdirilməsinin ərazi planlaşdırma sənədlərinə uyğunluğunun və hazırlanan layihələrin memarlıq hissələrinin rayon icra hakimiyyətlərinin müraciətləri əsasında Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılmasını, görülmüş işlər barədə ayda bir dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verilməsini təmin etməlidir.

Bu gün müşahidələr onu göstərir ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, şəhərin müxtəlif ərazilərində köhnə binaların söküntüsü aparılsa da, bu prosesdə müəyyən ləngimələr var. Məsələn, elə binalar var ki, söküntü işlərinə başlanılsa da, sökülməkdə olan tikilidə hələ də yaşayış mövcuddur.

Səbəb isə bəzi ailələrin verilən kompensasiyalarla razılaşmamasıdır və məsələ onların xeyrinə həll olunanadək mənzillərini tərk etməməkdə israrlıdırlar. Digər bir tərəfdən isə təklif edilən kompensasiya ilə razılaşıb müvəqqəti kirayədə yaşayan ailələr var ki, onlar da aidiyyəti qurumlar tərəfindən vəd verilən yeni mənzillərinə köçəcəkləri günü səbirsizliklə gözləyirlər. Amma tikintini aparmalı olan şirkətlərlə bəzi mülkiyyətçilələrin kompensasiya məsələsində razılığa gələ bilməməsi nəinki tikintiyə başlamaq, söküntü işlərini yekunlaşdırmaq prosesini yubadır. Bəs görəsən, bu kimi mübahisəli məsələlərdə haqlı tərəf kimdir?

> *Qazanc az, risk çox olduğundan artıq özəl tikinti şirkətləri prosesdə maraqlı görünmürlər*

> *Azərbaycan hökumətinin tikinti şirkətləri qarşısında qoyduğu əsas öhdəlik də ondan ibarətdir ki, müvafiq işlər qanunvericiliyə uyğun aparılsın və mülkiyyətçi incidilməsin*

Vətəndaş istədiyi qiymətə evini sata bilmək hüququna malikdirmi? Ümumiyyətlə bu məsələ necə tənzimlənməlidir?

### Qazanc azalıb, risk artıb

■ **Mövzunu hafta.az-a şərh edən əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev deyib ki, 2016-cı ildən başlayaraq paytaxtın müxtəlif ərazilərində pilot layihə çərçivəsində köhnə tikililər yeniləri ilə əvəz olunur.** Onun sözlərinə görə,təkcə paytaxt Bakıda istismar müddətini başa vurmuş minlərlə bina mövcuddur: “Amma bu o demək deyil ki, onların hamısı qəzalıdır. Qəzalı kimi qeydə alınmış 100-dən artıq bina var ki, həmin binalar artıq Fövqaladə Hallar Nazirliyinin tikintiyə nəzarət şöbəsi tərəfindən qəzalı kimi qeydə alınıb. Burda bir məsələ var ki, tikinti və söküntü işlərini aparan özəl sektordur. Bunu dövlət aparmır. Lakin bir məqam da var ki, əgər özəl sektor dövlətin etməli olduğu işləri görürsə, onlara dövlətin dəstəyi lazımdır. Tutaq ki, bu gün artıq həmin binaları sökmək özəl sektor üçün maraqlı deyil.Çünki bir 4 bloklu beşmərtəbəli “xruşovka” layhəli olan binada 60 mənzil var. Söküntü aparan şirkət məcbur həmin ailələri köçürməlidir və onlara 2 il müddətinə kirayə pulu verməlidir. Eyni zamanda, mülkiyyətçilərə həmin binadan daha geniş kvadrat mənzil ayırmalıdır. Yerdə qalan digər mənzilləri isə satıb həm qoyduğu xərci çıxarmalı, həm də qazanc əldə etməlidir. Amma burda qazanc az, risk çox olduğundan artıq özəl tikinti şirkətləri prosesdə maraqlı görünmürlər. Risk tərəfi də ondan ibarətdir ki, son bir neçə ildə tikinti materiallarının qiyməti az qala hər gün artır. Eyn zamanda, tikinti ilə bağlı qanunvericilik bazasında edilən müəyyən dəyişikliklər artıq özəl sektora imkan vermir ki, onlar bu işləri görsünlər. Başqa bir məsələ də var ki, bəzi binalarda bir qrup sakinin uzun müddətdir köçürülməsinə baxmayaq, bir qrup mülkiyyətçi ilə hələ də razılıq əldə olunmayıb. Söküntü aparan şirkət isə hər ay köçürdüyü ailələrə kirayə pulu verir.Söküntü prosesinin yubanması isə tikintiyə başlanılmasını da ləngidir”.

### Dövlət vətəndaşa zəmanət verməlidir

**Ekspert vurğulayıb ki, bu kimi problemli məsələlərdə mülkiyyətçi ilə danışıqlarda birbaşa dövlət qurumları iştirak etməlidir: “Aidiyyəti qurumlar vətəndaşlara izah etməlidirlər ki, yaşadıqları bina qəzalı vəziyyətdə olduğundan həmin binadan köçmək məcburiyyətdindədirlər.**

Yəni, bununla bağlı dövlətin vətəndaşa zəmanəti olmalıdır. Çünki adətən vətəndaşlar tikinti şirkətlərinə inanmırlar. Dövlət həm də tikinti şirkətinə qarant durmalı və onları bir çox vergilərdən azad etməlidir ki, özəl sektora bu tip binaları sökmək maraqlı olsun. Əks halda xırda titrəmə nəticəsində Bakı şəhərində çox sayda bina yerlə bir ola bilər. Ona görə də qaydalar mütləq dəyişməlidir. Burada digər bir məsələ də var ki, bəzən mülkiyyətçi tikinti aparacaq şirkətdən az qala 2 mənzilin pulunu istəyir. Bu da şirkətə sərf etmir. Əslində bununla bağlı ərazidə mütləq qiymətləndirmə aparılmalıdır. Tutaq ki, sökülən ərazidə “xruşovka” layihəli 3 otaqlı mənzil 100-110 min, 2 otaqlı 70-75 min , 1 otaqlı 60 min manat civarında təklif olunur. Bu isə o deməkdir ki, mənzilin 1 kvadratı 1700-1900 manata düşur. Vətəndaş isə bəzən kvadrata 3000-4000 manat tələb edir. Təbii ki, belə vəziyyətdə tikinti şirkəti həmin ərazidə iş aparmaqda maraqlı olmayacaq. Bu gün biz baxsaq görərik ki, Azərbaycanın tikinti şirkətləri artıq Ukraynada, Qazaxıstanda və digər MDB ölkələrində bu kimi işləri görürlər. Nəticədə ölkədə aparılmalı olan işlər yubanır”.

### Əmlak onun bazar qiymətinə əsasən qiymətləndirilməlidir

■ **Məsələnin hüququ tərəflərinə toxunan Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin idarə heyyətinin sədri, hüquqşünas Ramil Osmanlı hafta.az-a bildirib ki, bu kimi məsələlərdə bütün hallarda haqlı tərəf mülkiyyətçidir:**

“Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinə əsasən, hər kəsin mülkiyyət hüququ var və mülkiyyət hüququ, o cümlədən, xüsusi mülkiyyət hüququ qanunla qorunur. Həmçinin, dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər. Eyni zamanda, hər hansı bir şəxsin mülkiyyətində olan əmlakın Azərbaycan Respublikası Mülki Məcəlləsinin 203.3-cü maddəsinə əsasən qanunvericilikdə nəzərdə tutulmuş əsaslarla həyata keçirilən tədbirlərdən başqa, mülkiyyətçidən məcburi alınmasına yol verilmir. Ümumiyyətlə, Mülki Məcəllənin 211-ci maddəsinə uyğun olaraq, mülkiyyət hüququna xitam verildikdə əmlak onun bazar qiymətinə əsasən qiymətləndirilməlidir. Bu baxımdan, evlərin və obyektlərin sökülməsi ilə əlaqəli olan maraqlı tərəflər mülki qanunvericiliyin tələbləri nəzərə alınmaqla ödəniləcək müvafiq təzminatın həcmini qarşılıqlı razılaşma əsasında müəyyən etmək hüququna malikdirlər. Azərbaycan hökümətinin tikinti şirkətləri qarşısında qoyduğu əsas öhdəlik də ondan ibarətdir ki, müvafiq işlər qanunvericiliyə uyğun aparılsın və mülkiyyətçi incidilməsin. Amma söz yox ki, bəzən mülkiyyətçi də müəyyən ədalətsiz tələblər irəli sürür. Məsələn, mənzlinin dəyəri 100 mindirsə, bu rəqəmdə 5-10 dəfə artıq rəqəmə iddia edir. Bütün hallarda bu tələblər real bazar şərtlərinə uyğun olmur. Belə halda təbii ki, həm tikinti yubanır, digər vətəndaşların hüquqlarına zərbə vurulur. Eyni zamanda, tikinti şirkətlərinin riskləri artır, xərcləri çoxalır və s. Ona görə hesab edirəm ki, nəticənin hər iki tərəf üçün normal olmasından ötrü bütün hallarda bu prosesə dövlət də müdaxilə etməlidir”.

Ekspert onu da vurğulayıb ki, mövcud qanunvericilikdə kompensasiya ödənişi ilə bağlı hər hansı rəqəm qeyd olunmayıb: “Əgər vətəndaş istəmirsə, onu köçürmək olmaz. Amma nəzərə almaq lazımdır ki, sözügedən binalar paytaxtın ümumi görünüşünə təsir göstərməklə yanaşı, infrastruktura ciddi şəkildə mane olur. O mənada hesab edirəm ki, vətəndaşlar da bu prosesə maneçilik törətməməlidirlər. Lakin onun da əleyhinəyəm ki, məsələn, mülkiyyətçi Nizami metrosunun yaxınlığından aparıb Hövsana köçürsünlər. Bu da ədalətsiz yanaşma olar”.

✍ ***Sevinc***

# “Azərbaycanın Avrasiya İttifaqına qoşulması mümkündür”

## Müsahib

**Ölkə gündəmi gərginliyi ilə müşahidə olunan paradoksal proseslərə şahidlik edir. Azərbaycanın qərb sərhədlərində erməni işğalı nəticəsində üzləşdiyimiz gərgin vəziyyət, sülhməramlıların nəzarətində olan ərazilərimizdə erməni təxribatları, eləcə də “Laçın dəhlizi”ndən ölkəmizə gətirilən “naməlum obyektlər”in yaratdığı narahatlıq davam edir. Mövcud vəziyyət ölkədə həm də ictimai-siyasi dialoq mühitinin yaradılması zərurətini meydana çıxarır.**



**Rauf Qurbanov,**
Azərbaycan Kommunist Partiyasının (AKP) sədri

Qarabağda istədiyimiz nəticənin əldə olunması istiqamətində hansı addımlar atılmaldır və “sülhməramlı siyasəti” Rusiyanın SSRİ-ni bərpa etmək planına daxildirmi? Bu və digər məsələlərlə bağlı “Həftə içi”nə müsahibə verən Azərbaycan Kommunist Partiyasının (AKP) sədri Rauf Qurbanov vəziyyətlə bağlı məsələyə fərqli aspektən yanaşıb.

***- Rauf müəllim, AKP sədri olaraq Azərbaycanın Qarabağ ərazisindəki, sərhəddəki vəziyyəti və sülhməramlılarla bağlı durumu necə qiymətləndirərdiniz?***

- Bu gün Azərbaycan ictimaiyyətini maraqlandıran əsas məsələ Qarabağ problemi və onun həlli yollarıdır. Erməni xisləti vəziyyəti gərgin olaraq saxlamağa yönəlsə də, əvvəl-axır problem öz həllini tapacaq. Bu gün Ermənistanda olan ağır ictimai-siyasi həyat, əhalinin ölkəni tərk etməsi, acınacaqlı iqtisadi durum erməni lobbisinin apardığı soyqırım siyasətinin nəticəsidir. Hesab edirəm ki, Azərbaycan ictimai-siyasi kəsimi mövcud məsələ ilə bağlı bir qədər səbrli olmalıdır. Azərbaycan hərb, diplomatiya tarixində ilk dəfə olaraq 44 günlük müharibədə dövlətimizin, xalqımızın nəyə qadir olduğunu göstərdi. Düşünürəm ki, Qarabağ probleminin tam həlli üçün xırda bir məsələ qalıb.

“Biz tam qələbə əldə etmədik”- kimi çıxışlarla cəmiyyəti gərginləşdirməyə ehtiyac yoxdur. Bəzən bir çox siyasilər öz leksikonlarına uyğun olaraq sülhməramlıları işğalçı adlandırır və onların qələbəmizin tam olmasına imkan vermədiklərini deyirlər. Mən bu fikirlərin əksinə olaraq hesab edirəm ki, 30 il davam edən Ermənistan-Azərbaycan münaqişəsinin hərblə bitən nəticəsindən sonra sülhməramlıların bölgəyə gəlməsinə ehtiyac var idi. Biz bu gün Minsk qrupunun digər həmsədrlərinin fəaliyyətinə baxsaq görərik ki, elə Fransadan, ABŞ-dan fərqli Rusiyanın Qarabağda sülhməramlı kimi iştirak eləməsi daha məqsədyönümlüdür. 44 günlük müharibədə də Rusiyanın məsələyə müdaxilə etməməsi, yaxud Putinin öz çıxışlarında “Azərbaycan öz haqqı olan torpaqları üçün mübarizə aparır” deməsi, həmin dövlətin Azərbaycana və Ermənistana olan münasibətinin təsdiqidir.

***- Rusiya sülhməramlıları “Laçın dəhlizi”ndən istənilən casusu Qarabağa keçirir, erməni silahlıları ilə təmaslarda olur, Qarabağa erməni köçləri həyata keçirirsə, bundan necə narahat olmamaq olar?***

- Rusiya sülhməramlıları ilə bağlı bu kimi fikirləri Azərbaycan ictimaiyyətinə yayımlayanlar var. Guya orada silahlıların və silahların Qarabağa keçirilməsi üçün şərait yaradırlar. Rusiya o silahlıları, silahları Qarabağa keçirib nəyə nail olmağa çalışır. Burada bir məntiq olmalıdır.

> *Rusiyanın Qarabağın erməni əhalisini Rusiya vətəndaşı etməsinə də bir ehtiyacı yoxdur*

Nəzərə alsaq ki, 10 noyabr 2020-ci ildə Rusiya Prezidenti bu məsələ ilə bağlı özünün mövqeyini nümayiş etdirib. Həmin üçtərəfli sazişdə Rusiya, Azərbaycan, Ermənistan atəşkəslə bağlı sənədə imza atıblar, indi rusların ora silahları daşıması, silahlılara yer verməsi məntiqli görünmür. Ona görə də belə fikirlərlə kütləni qıcıqlandırmaq, gərginləşdirmək, insanlarda bir narahatçılıq yaratmağa əsas yoxdur.

Fransada prezidentliyə namizəd xanımın gəlib Qarabağda ermənilərlə görüşməsi qərb tərəfindən ortaya atılan təxribat xarakterli məsələdir. Biz hər bir məsələyə isti münasibət göstərib hay-küy qaldırırıq. Sülhməramlıların burada olması ilə bağlı müəyyən təxribatlar, onların missiyasına aid olmayan məsələlər var. Bu məsələlərə də səbirlə yanaşmalıyıq. Problemin əsas hissəsini həll edə bilmişik. Bu gün Şuşadan baxanda Xankəndini əlimizin içində görürük. Yəni istənilən vaxt oradan Xankəndini yerində otuzdurmaq mümkündür.

***- Prezidentin özü də müsahibələrində sülhməramlıların iştirakı ilə Qarabağa gedən, oradan çıxan yüklü maşınlarla bağlı narahatlığını bildirib. Siz deyə bilərsinizmi ki, rus sülhməramlıları orada niyə rus icması yaradır? Yaxud, Fransa siyasətçisi sərhədi keçirsə, ona bu imkanı kim yaradır?***

- Təbii ki, bunların hamısı narahatlıq doğurur. Orada rus pasportlarının paylanması, icma yaradılması fakta söykənən məsələ deyil. Rusiyanın Qarabağın erməni əhalisini Rusiya vətəndaşı etməsinə də bir ehtiyacı yoxdur. Məsələn, bu gün Azərbaycanda 200 min rus yaşayır. Bunlar Rusiya səfirliyinə müraciət edib Rusiya vətəndaşlığı ala bilirlər. Görün indi bir adam bu məsələyə münasibət bildirirmi? Hər bir başqa millətdən olan vətəndaşın hüququdur ki, yaşadığı dövlətdə hər hansı bir ölkənin səfirliyinə müraciət edib, vətəndaşlığını qəbul eləsin. Ola bilər ki, “Dağlıq Qarabağ”da kimsə Rusiya vətəndaşı olmaq üçün səfirliyə müraciət etsin. Bu, o anlama gəlmir ki, Rusiya “Dağlıq Qarabağ”ı işğal etmək istəyir və oranın əhalisini öz vətəndaşlarına çevirmək istəyir.

***- Üçtərəfli sazişə əsasən rus sülhməramlıları erməni silahlılarını ərazidən çıxarmalıdır, sərhədlərimiz müəyyənləşməlidir. Sülh sazişi imzalanmaldır və sair. Bunlar niyə baş vermir?***

- Üçtərəfli saziş imzalanıbsa, demək, sonrakı mərhələ sülhdür. Kommunikasiyalar, yollar açılmalı, dövlətlər arasında münasibətlər qurulmalıdır. Erməni tərəfi bu sənədə imza atsa da, gah beynəlxalq təşkilatların, gah güvəndiyi dövlətlərin əli ilə öz iddialarını həyasızcasına təkrar ön plana çəkir, Minsk qrupunun fəaliyyəti məsələsini ortaya qoyur, ABŞ Konqresi, Fransa senatı bu məsələyə başqa münasibət bəsləyir.

***- Özünüzü iqtidaryönlü hesab edirsiniz, yoxsa müxalifət?***

- AKP müxalifət partiyasıdır. Özümüzü iqtidar partiyası hesab etmirəm, bu fikirdə də deyiləm. Adından da məlumdur ki, Kommunst Partiyası kapitalizm düzənində heç vaxt iqtidar partiyası ola bilməz. Mən həmişə zarafatla deyirəm ki, kommunistlər 70 il işlədilər, indi məzuniyyətə çıxıblar, amma müddət bitəndən sonra yenidən hakimiyyətə qayıdacaqlar...

***- AKP siyasi partiyalar arasında dialoqu, əməkdaşlığı necə dəyərləndirir?***

- Təəssüflər olsun ki, dünyanın heç bir yerində Azərbaycandakı kimi müxalifəti müəyyən qütblərə bölmürlər. Azərbaycanda konstruktiv müxalifət, radikal müxalifət, yalandan özünü “ana müxalifət” adlandıranlar var. AKP də müxalifət partiyasıdır, amma nə radikal, nə iqtidaryönlü, nə da başqa bir yönlüdür. Biz Azərbaycanın milli maraqlarını ifadə edən məsələlərdə hakimiyyətlə bir yerdəyik. Bizim hakimiyyətin apardığı daxili siyasətə ciddi etirazlarımız var. Azərbaycan cəmiyyətinin sosializm quruluşunda yaşamasının tərəfdarıyıq. Qeyd etməliyəm ki, son vaxtlar iqtidarla siyasi müxalifət partiyaları arasında dialoq, əməkdaşlıq, ümummilli məsələrdə birgə fikir ortaya qoyulur. Hesab edirəm ki, iqtidar-müxalifət dialoqu var və bunu 44 günlük müharibədə gördük. Ümummilli məsələlərdə bir mövqedən çıxış edə bilirik. Bu iki məqamı bir-birinə qarışdırmaq olmaz.

***- SSRİ-nin bərpası mümkündürmü?***

- Bu suala Putinin fikri ilə cavab vermək istəyirəm: SSRİ-nin dağılmasına təəssüflənməyən insanın qəlbi yoxdur, onun həmin formada bərpa olunmasını düşünənlərin isə ağlı yoxdur. SSRİ bir dönəm idi ki, 70 il hakimiyyətdə oldu. Mən düşünmürəm ki, SSRİ əvvəlki formasında yenidən bərpa olunsun. Ola bilər ki, keçmiş sovet respublikalarına aid olan dövlətlərdə hansısa iqtisadi, siyasi birlik yaransın. Bu, SSRİ-nin əvvəlki formada bərpası deyil. Dövlətlər öz müstəqilliklərini, istiqamətlərini müəyyənləşdiriblər. Bunları təzədən bir araya gətirib vahid dövlətin tərkib hissəsi etmək olduqca çətin və qəbul olunmayan məsələlərdir.

***- Rusiya yeni ittifaq dövləti yaradır Bu ittifaqa Azərbaycan da qoşula bilər?***

- Bir gün öncə Lukaşenkonun Salovyovla olan müsahibəsinə baxdım. Sizin verdiyiniz sualı Salovyov da Lukaşenkoya verdi. Dedi ki, SSRİ-nin bərpası ilə əlaqədar belə bir fikir mövcuddur. Belarus Prezidenti də dedi ki, “Niyə də olmasın?”. Əgər bu gün Avropa İttifqı yaranırsa, iqtisadi, siyasi birliklər yaranırsa, nəyə görə keçmiş sovet respublikaları bir yerdə olmasın?! Məsələn, Avrasiya İttifaqı yaranıb, bir neçə keçmiş sovet respublikaları həmin İttifaqın üzvüdür. Mən dəfələrlə demişəm ki, əgər Azərbaycan xalqının maraqları tam təmin olunacaqsa, tam hüquqlu müstəqil dövlət kimi hansısa ittifaqda olması ona zərər verməz. Avrasiya İttifaqına qoşulması da mümkündür və burada Azərbaycan xalqının fikri nəzərə alınmalıdır.

✍ ***Tahirə Qafarlı***

## Qonaq

# Azərbaycan səfiri Kərkükə gəlmədi...



**Riyaz Sarıkahya,**
İraq türkmənlərinin milli lideri, Türkməneli Partiyasının sədri

***Əvvəllər İraq dünyanın ən bəxtəvər ölkələrindən biri idi. Varlı-karlı, siyasi aləmdə sayılıb-seçilən, ərazisində bəşər tarixinin ən güclü, əfsanəvi dövlətlərini yaradan, "Min bir gecə" nağıllarını özündə yaşadan bu ecazkar dövlət, təəssüf ki, 1990-cı ildən üzübəri müharibələrə səhnə oldu, Amerika tərəfindən işğal edildi və xoşbəxtlik məkanı olan bu iki çay arası yurdda terror hücumları insanları vahiməyə saldı... Ölən öldü, sağ qalan ev-eşiyini atıb hara gəldi qaçdı, getdi. Ən çox ziyan yaşayanlar isə dili dilimizdən, qanı qanımızdan olan, indinin özündə də özlərini biz azərbaycanlılarla eyni xalq sayan türkmənlər oldular. Bu günlərdə eşitdim ki, İraq türkmənlərinin milli lideri, Türkməneli Partiyasının sədri Riyaz Sarıkahya Azərbaycandadır. Onunla Bakıda görüşüb söhbətləşdik.***

Ölkəsində olub-bitənlərdən, türkmənlərin ağrı-acısından söz açdı, Azərbaycandan gözləntilərini dilə gətirdi. Beləcə, uzanan söhbətimizi qələmə alıb siz oxucularla bölümək qərarına gəldim:

- Azərbaycan bizim ikinci Vətənimizdir, yeri hər zaman İraq türkmənlərinin ürəyindədir. Millətimiz bir, dinimiz bir, adət-ənənələrimiz, dilimiz, hətta ləhcələrimiz də birdir. İraq türkmənləri türk dünyasını vətən olaraq görür. Bir türk millətçisi olaraq, arzumuz türk dünyasının birləşməsini görməkdir. Elə bu səbəbdəndir ki, Türk Dövlətləri Təşkilatının yaradılmasına çox sevindik. İnanırıq ki, millət olaraq birlikdə daha güclü olacağıq. Türk dünyası tarixboyu təhlükələrlə qarşı-qarşıya olub. Ona görə də birləşməli və təbii ki, ayıq-sayıqlığımızı da əldən verməməliyik.

***- Türkmənlərin İraqın tarixində bu gün də, dünən də, min il əvvəl də öz yeri olub. Amma deyəsən, bu qəhrəman xalqa münasibət zaman-zaman fərqlənib. Bu gün münasibət necədir sizə?***

- Türkmənlər min ildir İraqda yaşasalar da, son 100 ildir başlarına gəlməyən qalmayıb. Biz hər zaman digər xalqları özümüzə qardaş gördük, sevincləri sevincimiz, kədərləri kədərimiz oldu. Təəssüf ki, qarşılığında eyni münasibəti görmədik. BƏƏS partiyasının - Səddam Hüseynin rejimi zamanı türkmənlərə qarşı ayrı-seçkilik edildi, hüquqlarımız tapdalandı və sair. Nəticədə türkmənlərin yarısı köçüb getdi, bir hissəsi öz milli kimliyini gizlətdi - özlərini kürd və ya ərəb adlandırdı. Çox şükür olsun ki, Səddam dönəmi bitəndən sonra türkmənlər daha azad yaşamağa başlayıblar. Millətimizə qarşı təzyiqlər aradan qalxsa da, təəssüf ki, problemlər hələ də qalır.

***- Bunlar azmış kimi, "İŞİD" də ən böyük ziyanı türkmənlərə vurdu...***

- Tamamilə doğrudur. Təsəvvür edin ki, türkmənlərin ən yığcam yaşadığı 300 minlik Təlafər şəhərində bu gün cəmi 150 min sakin qalıb, yarısı köçüb-gedib. Başqa şəhərlərə, ölkələrə, hətta Türkiyəyə də pənah gətiriblər. Silahlı hücumlar, terror partlayışları zamanı nə qədər insanımız öldürülüb. Bu qənaətdəyik ki, 10 mindən çox itkimiz var. Bir məqam diqqət çəkir ki, "İŞİD" silahlıları şiələrin yaşadığı bölgələrə və kürdlərin məskunlaşdığı şimal ərazilərinə hücum etmədi - onlar sadəcə sünnilərin və türkmənlərin yaşadıqları əraziləri ələ keçirib, viran qoydular. Yəni "İŞİD"i məhz bizim ərazilərə yönləndirdilər. Əslində, sünni ərəblər "İŞİD"in hücumuna məruz qalsalar da, türkmənlər qədər ziyan yaşamadılar.

***- Gəzib-görmüşəm o yerləri, müharibənin dağıntıları olduğu kimi qalır, insanlar hərə bir yurdda köçkün həyatı yaşayır...***

- İraq hökumətinin türkmənlərə münasibətində təəssüfləndiirci məqamlar çox olub. Körfəz ölkələrindən verilən maddi dəstək nətcəsində sünni ərəblərin yaşadığı bölgələr, məsələn, Bağdadın qərbində yerləşən Ənbar yenidən tikilib-quruldu. Amma biz türkmənlərin öz evlərini bərpa etməsi üçün kimsə yardım etmədi. Təbii ki, türkmənlərin öz evlərini tikib təmir etməsi üçün maddi imkanları yoxdur, mütləq yardıma ehtiyac var. Türkmənlər, bayaq dediyim kimi, keçmişdə də zülm-əzab yaşadıqları üçün, bu gün ayaqda durmağa çətinlik çəkirlər - taqətləri tükənib. Odur ki, İraqa sülh və sabitliyin gəlişini gözləməkdən başqa çarəmiz qalmayıb.

***- Taleyin işinə baxın: əsrlərdir, istər Kərkükdə olsun, istər Ərbildə, istərsə də digər ətraf bölgələrdə, türkmənlərlə-kürdlər birgə yaşamaqdadırlar. Bu gün isə kürdlərin Kürdüstan Muxtariyyəti kimi öz idarəetmə sistemləri var. Onların sizə münasibəti necədir? Nəzərə alaq ki, Türkiyənin də Ərbillə əla münasibətləri var...***

- Türkmənlərlə-kürdlər qardaş xalqlar olaraq hər zaman birlikdə yaşayıblar. Hər zaman onlardan qız alıb-qız vermişik. Bu gün Kürdüstan muxtariyyətində türkmənlərin beş millət vəkili, bir naziri var. Parlamentin katibi də türkməndir - Munə Kuzəçi. Məncə, türklə-kürdün dost olması ancaq fayda verə bilər. Bir şərtlə ki, səmimiyyət olsun. Məsələn, PKK türkə nifrət edir, türkü məhv etməyə çalışır və təbii ki, onlar bizim düşmənlərimizdir. Yeri gəlmişkən, PKK Bərzanini də hədəf seçib. Ona görə də Türkiyənin bu terror təşkilatına qarşı əməliyyatlarına hər zaman Kürdüstan Muxtariyyətinin polisi və silahlı qüvvələri - peşmərgə dəstək verir. Ümumiyyətlə, bir hissə kürdlər var ki, hər zaman türklərlə birlikdə yaşamaq, əməkdaşlıq içində olmaq istəyirlər və biz də onlara isti yanaşırıq.

***- Səddam devriləndə bir çoxları düşünürdü ki, daha yaxşı olacaq sosial vəziyyətləri...***

- Səddam 18 ildir devrilib, amma bu gün ölkədə elektrik enerjisi yoxdur. Gündə cəmi 4 saat elektrik verirlər. İmkanı olanlar generator alıb işlədir. Generator isə bu ailələri ayda 80-90 dollar ziyana salır və təbii ki, hamının bu qədər pul xərcləmək imkanı yoxdur. Səddamdan sonra heç bir yol təmir olunmayıb. Məktəblərdə vəziyyət pisdir və nəticədə təhsilin səviyyəsi də çox düşüb. Məqsədləri aydındır: bölgəni səfalətə sürükləmək istəyirlər. Yalnız türkmənlər deyil, ərəblərin də bir qismi öz torpaqlarını tərk edərək Bağdada və başqa yerlərə köçdülər. Kürdlər arasında da köçənlər var. Bilirsiniz, bölgənin sosial problemləri həll olunmadıqca, insanların rifahı düzəlməyəcək, hətta daha da pisləşəcək.

***- Xaricdən yardımlar olunur ölkənizə, yəqin, səmərəli istifadə olunmur...***

- Xarici ölkələrin İraqa münasibəti tam deyil, onlar ayrı-ayrı milli və dini qrupları dəstəkləyirlər. Məsələn, İran ancaq şiələri, Səudiyyə Ərəbistanı və digər Körfəz ölkələri sünni ərəbləri, Qərb ölkələri kürdləri dəstəkləyir və maddi-texniki yardımlarını ancaq onlara göndərir. Hansı ki, bu yardımlar bütövlükdə İraq əhalisinə edilməliydi ki, problemlər azalsın. İraqın tarixi çox qədimdir, hər zaman da qonşu və ümumiyyətlə, region ölkələri ilə sıx əlaqələri olub. Bu gün də İraqın İranla, Türkiyə ilə, Səudiyyə Ərəbistanı, İordaniya, elə sizin Azərbaycanla sıx əlaqələri var. Biz türkmənlərin böyük hissəsi özünü Azərbaycan türkü hesab edir. Bu ölkələrlə əlaqələr bərpa edilməli və daha da genişləndirilməlidir.

***- Yeri gəlmişkən, İraqla Azərbaycan arasında əlaqələr necədir, bir türkmən olaraq bu sizi qane edir?***

- Baxın, İraqın Türkiyə və İranla əlaqələri yüksək olmasa da, orta səviyyədədir, Azərbaycanla isə olduqca aşağıdır. İraq yeraltı sərvətləri baxımından çox zəngin ölkədir. Düzdür, uzun illərdir korrupsiya və talanlar bu sərvətlərin xeyrinin sadə əhaliyə çatmasına imkan verməyib, amma hər halda varlı ölkədir. Azərbaycan da təbii sərvətlərlə zəngin dövlətdir. Məncə, ölkələrimizin əməkdaşlığı genişləndirməsi üçün çox böyük potensial mövcuddur. Bunun üçün ikitərəfli səfərlərin artması, rəsmi nümayəndə heyətlərinin qarşılıqlı səfərlər edərək danışıqlar aparması vacibdir. Azərbaycanın Kərkükdə, Kərbəlada, Təlafərdə Mədəniyyət Mərkəzləri açmasını arzulayırıq. Azərbaycanda incəsənət yüksək inkişaf edib, hansı ki, bu sahədə İraqda böyük sıxıntılar mövcuddur. Hesab edirik, bu sahədə, yəni teatr, kino və sair çəkilişlərində Azərbaycan İraqa çox böyük töhfələr verə bilər. Əgər mədəniyyət müstəvisində əlaqələrimiz genişlənsə, əminəm ki, bu iqtisadi-ticarət sektorunun inkişafına da təsir göstərəcək. Biz türkmənlər hər zaman Azərbaycanı yanımızda görmək istəyirik. Biz sizin bir parçanızıq, bizi unutmayın.

> *Səddam 18 ildir devrilib, amma bu gün ölkədə elektrik enerjisi yoxdur*

***- Siz ötən dəfə Azərbaycana gələndə torpaqlarımızın bir hissəsi Ermənistanın işğalı altında idi. İndi həmin torpaqlar azaddır - 44 günlük şanlı savaş nəticəsində öz ərazilərimizi geri qaytarmışıq. Maraqlıdır ki, 44 günlük müharibə və təbii ki, Azərbaycanın qələbəsi İraq ictimaiyyəti arasında necə qarşılanıb?***

- İnanın ki, bu müharibənin gedişatını sanki öz ölkəmizdə baş verirmiş kimi izləyirdik. Nəinki türkmənlər, bütün İraq əhalisi Azərbaycanın haqq savaşını dəstəkləyirdi. Eşidəndə ki, müharibə Azərbaycanın qələbəsi ilə başa çatıb, iraqlılar öz qələbələri kimi sevinib, bayram edirdilər. Zatən qələbədən sonra İraqdan parlament nümayəndə heyəti də təbrik üçün Bakıya gəlmişdi. Bu qələbə, demək olar ki, İraqı birləşdirmişdi, çünki həmin heyətdə sünnisi, şiəsi, türkməni, kürdü - hamı təmsil olunurdu.

***- Təəssüf ki, Azərbaycanın bu qələbəsini İran həzm edə bilmirdi. Bildiyim qədər, İraqda da bəzi dini qruplar İranın təsiri altındaydılar. Onlar necə, ikili yanaşmadımı Azərbaycanın zəfərinə?***

- Yerində verilən sualdır. Müharibə zamanı İraq Məclisindəki bəzi şiə qruplar məhz İranın sərgilədiyi münasibətin təsiri altında bu prosesə necə yanaşağaqlarını bilmirdilər. O vaxt mən Mosuldan seçilmiş millət vəkili Seyid Muxtara dedim ki, Məclisdə hamıya başa salsın: Azərbaycan əhalisi şiələrdir və Ermənistan şiələrin torpaqlarını zəbt edib, indi də həmin şiələr öz ərazilərini azad eləmək üçün əməliyyata başlayıblar. Seyid Muxtar da belə etdi. O vaxt İraqın siyasi elitasında Azərbaycan barədə çox şeyi bilmirdilər. Hər halda, nəhayətdə hamı əsl həqiqəti başa düşdü və Azərbaycan torpaqlarının azadlığını, bayaq dediyim kimi, öz bayramları kimi qeyd etdilər.

***- Bu dəfə olmasa da, inşallah növbəti səfərinizdə azad olunmuş torpaqlara - Şuşaya baş çəkərsiniz...***

- Çox istərdim. Əslində soruşdum, dedilər o tərəflərdə hərbi vəziyyət mövcuddur. Amma inşallah növbəti dəfə gələndə sizinlə birlikdə gedərik Şuşaya.

***- Hazırda Azərbaycanda, təxminən, nə qədər türkmən yaşayır?***

- Pandemiya ilə əlaqədar bir çox tələbə İraqa qayıdıb, hətta məktəbdən imtina edənlər də var. Buna baxmayaraq, haradasa 200 türkmənin olduğunu zənn edirəm. Əlbəttə, ümumi iraqlıların sayı daha çoxdur...

***- Demək istəyirəm ki, məsələn, hansısa ölkədə 40-50 azərbaycanlı varsa, onlar yığışıb hər hansı adda mədəniyyət dərnəyi filan yaradırlar. Deyirsiniz, 200 türkmən var Azərbaycanda, bu əslində böyük rəqəmdir. Elə isə onlar niyə mədəniyyət dərnəyi və ya cəmiyyəti təsis etmirlər?***

- Əslində, mən də çox istərdim belə bir cəmiyyət yaransın. Türkmən-Azərbaycan Dostluq Cəmiyyəti ola bilərdi. Burada yaşayan bir neçə türkmən və bir o qədər də azərbaycanlının qatılımı ilə təsis etmək olardı. Məsələn, Qəzənfər Paşayev mənəvi və fəxri sədri olardı, axı onu İraqda hər kəs tanıyır, böyük əməyi olub ölkələrimiz arasında əlaqələrin inkişafında. İnşallah, xəstəlikləri dəf edək, tələbələrimiz qayıtsınlar Bakıya, bu barədə nəsə düşünüb-danışarıq.

***- Azərbaycanın İraqda səfirliyi var, onlarla əlaqə saxlamısınız?***

- Biz bir dəfə Azərbaycan səfirliyinə müraiət etdik ki, onları Kərkükdə görməkdən məmnun olardıq. Türkiyənin səfiri gəldi, Azərbaycan səfiri isə yox. Bağdadda Türkmən Qardaşlıq Ocağı var, Azərbaycan səfiri bircə dəfə oranı ziyarət edərsə, təbii ki, bu barədə sosial səhifələrdə filanda paylaşımlar olacaq və bu, türkmənlərə çox böyük mənəvi stimul verərdi. Təəssüf ki, bunlar sadəcə bizim gözləntilərimizdir...

✍ **Vüsal Tağıbəyli**

## Müsahib

# Qarabağda "prezident seçki"sini Köçəryan istəyir...



**Teymur Qasımlı,**
Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin sədr müavini

***Beynəlxalq siyasi analitik, Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin sədr müavini Teymur Qasımlı ilə hafta.az üçün budəfəki söhbətimizdə artıq 31-ci ildir ki, Azərbaycan Respublikasının işğal altında qalan torpaqlarında qondarılmış separatçı-terrorçu erməni rejiminin hazırda Rusiya hərbi kontingentinin himayəsində bəslənən tör-töküntülərinin yeni qanunsuz "prezident" "seçki"ləri keçirmək həvəsindən danışdıq, buna beynəlxalq qurum və aparıcı dövlətlərin hansı münasibət sərgiləyəcəyini müzakirə etdik.***

***- Teymur bəy, 44 günlük savaşdakı zəfərimizdən sonra da təəssüf ki, Rusiya hərbi kontingentinin himayəsində bəslənən separatçı-terrorçu rejim yenidən "siyasi" fəallıq göstərməyə çalışır. Növbəti dəfə qondarma "prezident" "seçkiləri" keçirməkdən dəm vururlar. Yadınızdadırsa, 2020-ci ilin mart və iyununda Xankəndidə iki turda keçirilmiş belə üzdəniraq "seçki"lərin nəticələrini tanımamaq barədə Rusiya istisna olmaqla, ABŞ, Britaniya, Almaniya, Fransa, İtaliya və s. kimi aparıcı dövlətlər sərt bəyanatlar verdi. Sizcə, indi belə bir "seçki" keçirilərsə, beynəlxalq ictimaiyyət buna necə reaksiya verəcək?***

- Öncə onu deyim ki, 2020-ci ilin martında Azərbaycan Respublikasının Qarabağ torpaqlarındakı separatçı rejim tərəfindən keçirilmiş qondarma "seçki"lərin "pərdəarxası"nda Rusiya var idi. Daha doğrusu, Moskva bu "seçki"dən Azərbaycana təzyiq aləti kimi istifadə edirdi. Onu da demək gərəkdir ki, Qarabağdakı bu oyuncaq qurumun Ermənistanın həmin dövrdəki hökuməti belə, heç bir zaman "müstəqil" olmasını istəməyib. Sadəcə, Ermənistanın tərkibində muxtar bir bölgə kimi olmasına çalışıblar, yəni Ermənistana birləşməsi də gündəmdə olub. Ermənistanı idarə edənlər birləşməyə isti baxmayıblar...

Hazırda isə Xankəndidəki növbəti "seçki" tamaşasının hazırlanmasını Rusiyanın yeni oyunu kimi görmək lazımdır. Əgər hər hansı "seçki" olsa, bu separatçı, oyuncaq qurum özünü "müstəqil" elan etmək istəsə belə, onu, uzaqbaşı, Rusiyadan başqa heç kim tanımayacaq. Yuxarı Qarabağ hüquqi və tarixi baxımdan Azərbaycanın torpağıdır. Üstəgəl də hazırda biz Qarabağın əksər hissəsinə birbaşa nəzarət edirik. Beynəlxalq hüquq da tərəfimizdədir. BMT və digər beynəlxalq təşkilatlara üzv olanda ərazi bütövlüyümüzü mövcud hüquqi sərhədlərimizdə tanıyıblar. Heç bir dövlət və ya beynəlxalq qurum Qarabağın bir hissəsi olan Xankəndi və digər ərazilərimizdə qondarılmış saxta rejimin istər "müstəqilliyini", istərsə də bu rejimin keçirdiyi hər hansı qanunsuz "seçkiləri" tanımayacaq və tanıya da bilməz. Əks halda bu, beynəlxalq huquqa zidd addım olaraq dəyərləndirilər. Onu da unutmayaq ki, Qarabağdakı bəhs edilən separatçı rejim və onu dəstəkləyən dövlətlər bizdən orada məskunlaşmış ermənilər üçün status istəyirlər. Bizim dövlətimiz də bundan qəti imtina edir və çox düzgün edir...

***- Hazırda hərbi kontingenti "sülhməramlı" adı ilə Qarabağda olan Rusiya, sizcə, bu məsələyə necə rəsmi münasibət bildirəcək?***

- Rusiya hazırda Osetiya, Abxaziya, Donbas və s. kimi separatçı qurumlara dəstək verir, hətta onları tanıyır və əməkdaşlığı genişləndirir. Digər tərəfdən, Azərbaycanla bağlı situsiya tamam fərqlidir. Bu gün özü də çətin günlərdən keçən rəsmi Moskva nə Qarabağdakı bu oyuncaq qurumu, nə də onun keçirdiyi qanunsuz "seçki"ləri rəsmən tanıyar. Unutmayaq ki, həmin separatçı quruma bugünədək bəzən "sülhməramlı" adı ilə birbaşa, bəzən də dolayısı dəstək verən Rusiyadır. Rusiyanın Qarabağda olan hərbi kontingenti də ancaq Kremldən gələn əmrləri yerinə yetirir. Xankəndidə növbəti qanunsuz "seçki" keçiriləcəyi halda da Putin hansı tapşırığı verəcək, hərbi kontingent də onu icra edəcək. Təbii ki, "seçki"lərin keçirilməsinə mane olmayacaqlar. "Seçki"lərin durdurulmasını yalnız rəsmi Bakı tələb etməlidir...

***- Paşinyan və İrəvandakı Rusiyameyilli Köçəryan-Sərkisyan revanşist müxalifəti ayrı-ayrılıqda Qarabağda oyuncaq liderliyə hansı namizədləri nəzərdə tuturlar?***

- Hazırda erməni mediasında yayılan məlumatlara görə, Qarabağda olan oyuncaq quruma rəhbərlik etmək uğrunda əsasən Robert Köçəryanın adamları mübarizə aparır. Onlar Arayiki devirmək üçün hər vasitəyə əl atırlar, hətta Arayikə sui-qəsd də edilmişdi. Hesab edirəm, Paşinyanın namizədi yoxdur. Daha doğrusu, Arayik bugünədək Paşinyanın adamı sayılıb. 10 noyabr üçtərəfli razılaşmasından sonra isə əsasən Rusiyanın əmrlərini yerinə yetirir. Son zamanlar isə Arayiklə Paşinyanın münasibətlərində gərginlik nümayiş etdirilir. Əgər bu da növbəti bir oyun deyilsə.. Qondarma "prezident" "seçki"sini əsas Köçəryan istəyir. Rusiya isə ikili oynayır...

***- Ermənilər iddia edir ki, guya Azərbaycan separatçı rejim liderliyinə Qarabag döyuslərində istirak etməmiş birinin "secilməsi" ilə bağlı Rusiya tərəfinə təzyiq edir. Məgər rəsmi Bakı Xankəndidə "seçki" keçirilməsinə imkan verəcək?***

- Birincisi, bu, ağ yalandır. Azərbaycan dövlətinin belə bir istəyi olmayıb. 11 yanvar 2021-ci il tarixində Moskvadakı görüşdə Azərbaycan dövlətinin rəhbəri Xankəndinin idarə olunmasında Bakı-Moskva razılaşması şərtini irəli sürüb və bu gün də həmin şərt gündəmdədir və bunun üçün də işlər görülür. İkincisi, Rusiya Xankəndinə Ermənistandan erməniləri yığıb gətirir. Ermənilərin çoxu Qarabağda qalmaq istəmir, onları Rusiya hərbçiləri və separatçı rejim orada zor gücünə saxlayırlar. "Seçki" keçirmək oyununu da, öncə dediyim kimi, hazırda Rusiya öz maraqları naminə Azərbaycana təzyiq etmək üçün aparır. Azərbaycan dövləti bu günə qədər oradakı oyuncaq qurumun ləğvini tələb edib. Odur ki, rəsmi Bakının Xankəndində qondarma "seçki"lərin keçirilməsinə imkan verəcəyini düşünmürəm. Əgər ermənilər bunu edərlərsə, hər vasitə ilə qarşısı alınmalıdır. Buna rəğmən "seçki" yenə də keçirilərsə, bu, Rusiya və Ermənistan üçün ən böyük səhv olar.

> *"Seçki" keçirmək oyununu Rusiya Azərbaycana təzyiq etmək üçün aparır...*

Onlar bu işin altından çıxa bilməzlər. Bu, onların tərəf kimi 10 noyabr bəyanatına zidd davranması demək olar. O halda Azərbaycan dövləti də bunu bəhanə edərək Rusiyanın necə yanaşmasından asılı olmayaraq, Qarabağın separatçı rejimin və qanunsuz erməni hərbi qüvvələrinin mövcud olduğu hissəsində antiterror əməliyyatları başlatmalıdır... Sonda Xankəndi, Xocalı, Əsgəran, Ağdərə və digər torpaqlarımız da Azərbaycanın birbaşa nəzarətində olacaq. Buna şübhəm yoxdur. Bunun üçün hər bir Azərbaycan vətəndaşı dövlətimizin yanında olmalıdır...

✍ **Sultan Laçın**



**■ "Xəstəlik zamanı əlamətlər yüngül olduqda insanlar evdə qalmağa üstünlük vermir". Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov "COVID-19" mövzusunda çıxışında deyib.**

O bildirib ki, onlar xəstəliyə digər respirator virus infeksiyaları kimi yanaşır: "Bu gün yoluxduruculuq sürəti yüksək olduğu üçün ailədə olanlar hamısı xəstəliyə yoluxur". T. Eyvazov qeyd edib ki, hazırda uşaqlarda bir neçə infeksiya qarışıb: "Burada müxtəlif viruslar var ki, xəstəliyə səbəb olur. Azərbaycanda 12 yaşdan yuxarı uşaqların peyvənd olunmasına icazə verilib. Amma peyvəndlənənlərə baxanda onların sayı çox azdır, heç bir faizi əhatə etmir.



**■ Xəzər Rayon Məhkəməsi Bakıda yeniyetmə qızla evlənən 1993-cü il təvəllüdlü Mayıl Hadıyevlə bağlı qərar çıxarıb.**

Hafta.az Report-a istinadən xəbər verir ki, məhkəmənin qərarına əsasən, onun barəsində polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib. Xəzər Rayon Polis İdarəsinin İstintaq idarəsi tərəfindən cinayət əməlində təqsirləndirilən M.Hadıyevin barəsində Cinayət Məcəlləsinin 152-ci (On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə) maddəsi ilə ittiham irəli sürülüb. Hazırda başlanılan cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidməti faktı təsdiqləyib.



**■ Hazırda neft bazarı daha çevik və effektiv monitorinq mexanizminə malikdir. Bu barədə energetika naziri Pərviz Şahbazov OPEC bülletenində dərc olunan müsahibədə deyib.**

O qeyd edib ki, Əməkdaşlıq bəyannaməsi ilk dəfə OPEC üzvü olmayan, amma neftlə zəngin ölkələrə neft bazarında sabitliyin təmin olunması üçün razılaşdırılmış fəaliyyət prosesinə qoşulmağa imkan verdi.

"Bazar iştirakçılarının maraqlarının nəzərə alınması baxımından ədalətli və yaradıcı həll yolu olan bu təşəbbüs 2016-cı ilin yanvarında Davov Dünya iqtisadi forumunda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüşdü. Həmin ilin dekabrında yarandığı andan etibarən OPEC+ əməkdaşlıq formatı neft bazarında stabilliyə xidmət edir.



**■ Ötən müddət ərzində işgəncəyə və digər qanunsuz əməllərə məruz qalan 163 yeni şəxs müəyyən edilərək zərərçəkmiş şəxs qismində tanınmaqla işin halları üzrə tam, hərtərəfli dindirilib.**

Bu barədə hafta.az-a Baş Prokurorluğun Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, onların məhkəmə-tibbi ekspertizadan keçirilmələri təmin edilib.

Beləliklə, işgəncə faktları üzrə əvvəlki istintaq zamanı zərərçəkmiş kimi tanınmış şəxslərlə birlikdə cinayət işləri üzrə hal-hazıradək ümumilikdə 281 zərərçəkmiş şəxs müəyyən edilmişdir. İş üzrə zərərçəkmiş şəxslərin müəyyən edilərək dindirilməsi prosesi davam etdirilir.

# “TƏBİB Səhiyyə Nazirliyinə birləşdirilsin”

## Səhiyyə

***Ölkədə səhiyyə sisteminin insanların sağlamlığının qorunmasındakı rolu və əhəmiyyəti ictimaiyyət tərəfindən birmənalı qarşılanmır. Cəmiyyətdə bir çox hallarda vətəndaşın xəstəxanalara, xidmət keyfiyyətinə inamsız yanaşması müşahidə olunur. Belə hallar pandemiya dövründə daha qabarıq ortaya çıxdı. İnsanlarımızın öz sağlıqlarını yerli həkimlərə deyil, xarici ölkələrə etibar etməsi faktı, əslində, bir “SOS”dur. Bu sahədə ciddi kadr islahatına, savadlı həkim potensialına ehtiyac duyulduğu gündəmə gəlir. Azərbaycan insanı öz xəstəxanalarının xidmətindən niyə narazıdır və bu, səhiyyə sistemində hansı islahatların aparılmasını tələb edir?***



**Musa Quliyev,**
Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri

Bu və ya digər məsələlərlə bağlı “Həftə içi”nə müsahibə verən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev maraqlı fikirlər səsləndirdi.

***- Azərbaycan səhiyyəsinin mövcud durumu necədir? Səhiyyəmiz müasir standartlara cavab verirmi? Mövcud həkim-kadr potensialını necə dəyərləndirmək olar?***

- Hər bir ölkənin sosial siyasətində səhiyyə mühüm yer tutur. Bu, Azərbaycanın da daxili siyasətində prioritet istiqamətdir. Şübhəsiz ki, əhalinin sağlamlığının qorunması, tibbi xidmətlərə əlçatanlılığın təmin olunması, keyfiyyətin yüksəlməsi, dərman təhlükəsizliyi və sair kimi məsələlər həm dövlətin, həm də cəmiyyətin daim diqqət mərkəzindədir.

Hazırda Azərbaycan səhiyyəsi islahatlar dövrünü yaşayır. Bu islahatlar da koronavirus pandemiyası ilə eyni vaxta düşdüyündən həm səhiyyənin yükü artıb, həm də islahatların gedişi bir qədər ləngiyib. Bu, obyektiv reallıqdır. Onu da qeyd edim ki, səhiyyə islahatları Azərbaycanda 15 ilə yaxındır ki, başlayıb və mərhələ-mərhələ davam edir. İlkin mərhələdə səhiyyənin maddi-texniki bazasının yaxşılaşdırılması, kadr təminatının, kadr hazırlığının həyata keçirilməsi, səhiyyənin idarəedilmə sisteminin müasir tələblərə cavab verilməsi və sair məsələlər ön planda oldu. Cənab Prezidentin səhiyyə ilə bağlı qəbul etdiyi 20-dən çox proqram, ”İctimai tibbi sığorta haqqında” qanunun qəbul olunması, səhiyyə sisteminin dünya səhiyyə sisteminə inteqrasiya olunması, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatının qəbul etdiyi klinik protokolların Azərbaycan tərəfindən qəbul olunması və protokollar əsasında müayinə və müalicələrin aparılması çox ciddi islahatlardır. Cənab.

Prezidentin tapşırığı, birbaşa nəzarəti və rəhbərliyi ilə ölkədə 700-dən çox səhiyyə müəssisəsi əsaslı təmir olundu, yaxud yeniləri tikildi və səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində, o cümlədən də müasir tibb texnologiyasının alınıb ölkəmizə gətirilməsində inqilabi dəyişikliklər baş verdi ki, bu bir faktdır.

Tibb kadrlarının hazırlanması istiqamətində də böyük işlər görülüb. Xüsusilə cənab Prezidentin 2008-2015-ci illər üzrə xaricdə təhsil proqramından yararlanan yüzlərlə gəncimiz xarici ölkələrdə, o cümlədən Almaniya və qardaş Türkiyədə yüksək tibb təhsili alaraq, uzmanlı tibb doktorları səviyyəsində mütəxəssis olaraq ölkəmizə qayıdıblar. Tam məsuliyyətlə demək olar ki, Azərbaycan səhiyyəsinin idarə olunmasında və yüksək ixtisaslı tibbi xidmətlərin həm təşkilində, həm də həyata keçirilməsində bu kadrların əvəzsiz rolu var. Eyni zamanda, Azərbaycan Tibb Universiteti də yenidən öz işini təşkil edə bildi.

Azərbaycanda rezidentura təhsilinin yüksək səviyyədə həyata keçirilməsi üçün də lazımi işlər görülməkdədir. Tibb Universiteti ilə yanaşı, Naxçıvan Universitetinin Tibb fakültəsi və Moskva İvan Seçenov adına Birinci Tibb İnstitutunun Bakı filialı da kadr hazırlığı işinə öz töhfələrini verməkdədir.

***- İcbari tibbi sığorta sistemi nə dərəcədə işləkdir?***

- Bütün dünyada səhiyyədə ən ağır və çətin islahatlar bir sistemdən başqa sistemə keçməkdir. Uzun illər Azərbaycan səhiyyəsi ”Semaşko” modeli deyilən sovet səhiyyə sisteminin bir tərkib hissəsi kimi fəaliyyət göstərib. Bu sistemdə də yuxarıdan, yəni büdcədən, bir mərkəzdən maliyyələşdirmə mexanizmi həyata keçirildi. Bu da müəyyən hallarda özünü göstərmirdi.

İnsaf naminə demək lazımdır ki, bu sistemin də, xüsusən profilaktik səhiyyə sahəsində öz üstünlükləri vardı. Bütün dünya hal-hazırda səhiyyənin idarə edilməsinin, səhiyyə və tibb xidmətləri göstərilməsinin ən optimal üsulu olan icbari tibbi sığortaya əsaslanan səhiyyə modelinə üstünlük verir. Azərbaycan da artıq bu modelə keçib. Düzdür, burda bizim kifayət qədər ləngiləmələrimiz də oldu. Bu da əsasən həm tibb kadrların lazımi səviyyədə olmaması, həm də tibb müəssisələrinin adekvat cavab verə bilməməsi ilə bağlı obyektiv səbəblərdən ibarət idi. İndi artıq iki ildən çoxdur ki, icbari tibbi sığortanın ölkənin bütün ərazisində həyata keçirilməsinin şahidi və iştirakçılarıyıq. Çox

> “
> *Biz dərman, tibb sənayemizi və tibbi xidmətlərimizin göstərilməsini Türkiyənin tibb və dərman sənayesi ilə inteqrasiya etməliyik*

> *Səhiyyədə uzun illər çalışmış kadrların bəziləri yeni düşüncə tərzinə malik deyildilər*

> *Arzu etdiyimiz keyfiyyətdə icbari tibbi sığortanın həyata keçirilməsini təmin edə bilməmişik*

təəssüflər olsun ki, icbari tibbi sığortanın həyata keçirildiyi dövrdə dünyada baş verən bu koronavirus pandemiyası ilə üst-üstə düşdüyünə görə lazımi, arzu etdiyimiz keyfiyyətdə və miqyasda təmin edə bilməmişik.

Eyni zamanda, icbari tibbi sığirta agentliyinin yaranması, icbari tibbi sığorta agentliyinin nəzdində tibbi xidmətlərin göstərilməsi üçün TƏBİB-in yaranması, səhiyyə, icbari tibbi sığorta agentliyi ilə TƏBİB arasında funksiya bölgüsünün aparılması, müəyyən yeni kadrların idarəetmə sisteminə gəlməsi müəyyən qədər uzlaşmanın olmaması və diskomfort yaradan halların da şahidi oluruq. Bütünlükdə bunların hamısı keçilən bir yoldur, bir mərhələdir. Azərbaycan səhiyyəsinin yaxın gələcəkdə buraxılan nöqsanların aradan qaldırılması şərti ilə, bu xidmətlərin daha yüksək səviyyədə təşkil olunacağına inanıram.

***- Prezident İlham Əliyev Səhiyyə Nazirliyinə yeni rəhbər təyin etdi, bütün müavinlər işdən çıxarıldı. Bu dəyişiklik nə ilə bağlı idi? Yenilərindən gözləntilər nədir?***

- Səhiyyənin idarə olunmasında yüksəksəviyyəli kadrların idarəetmə işinə gətirilməsi və dünya təcrübəsini, xüsusən müasir idarəetmə təcrübəsini bilən kadrlardan səhiyyə sisteminin rəhbərliyinin təşkil olunması bizim bu cür optimist düşünməyimizə əsas yaradır.

Teymur Musayev gənc səhiyyə təşkilatçılarındandır, xarici təcrübəni yaxşı bilir, xarici ölkələrdə həm təcrübə keçmiş, həm təhsil almış və Azərbaycanda özəl sektorda, həm də səhiyyə idarəçiliyində iştirak etmiş bir şəxsdir. Hesab edirəm, Teymur müəllimin baxışları, səhiyyəmizin inkişafı üçün hazırlayacağı proqram və layihələr uğurlu olacaq. Eyni zamanda, səhiyyədə uzun illər çalışmış və müəyyən qədər də öz töhfələrini və xidmətini vermiş kadrların bəziləri artıq yeni düşüncə tərzinə malik deyildilər və yeni çağırışlara da uyğunlaşmaq onlar üçün çətin idi.

Görünür, məhz buna görə Teymur müəllim yeni komandanın qurulması və özünün tanıdığı, güvəndiyi şəxslərin rəhbərliyə gətirilməsi üçün təşəbbüs göstərdi. Bu təşəbbüslər nəticəsində səhiyyə nazirinin köhnə müavinləri vəzifədən azad olundu və yeni müavinlər də səhiyyə sisteminə kənardan gəlmiş insanlar deyil. Nadir Zeynalov bundan öncə bir müddət Səhiyyə Nazirliyi sistemində çalışmış, o cümlədən Səhiyyə Nazirliyinin Aparat rəhbəri olmuş, Tibb Universitetində kafedra müdiri olmuş və dərs demiş bir alim kimi öz xidmətlərini göstərir.

İlqar müəllimi də uğurlu səhiyyə təşkilatçısı və cərrah kimi tanıyıram. Digər müavin də iqtisadçı kimi, düşünürəm, səhiyyəmizin iqtisadi modelinin qurulmasında öz köməyini göstərəcək.

***- Belə təkliflər var ki, Səhiyyə Nazirliyi ilə TƏBİB birləşdirilsin. Yəni bütün məsələlər bir əldən idarə olunsun.***

- TƏBİB-in, İcbari Tibbi Sığorta Agentliyinin və Səhiyyə Nazirliyinin əlaqələrinin daha funksional və daha səmərəli olması üçün addımlar atılacaqdır. Gələcəkdə TƏBİB-in Səhiyyə Nazirliyində və İcbari Tibbi Sığorta Agentliyində qalması məsələsinə gəldikdə, mən bu barədə əvvəllər də öz fikrimi söyləmişəm. İslahatlar dövründə TƏBİB-in İcbari Tibbi Sığorta Agentliyinin tərkibində yaranması tamamilə məntiqli idi. Yəni köhnə səhiyyə modelinin içərisində yeni bir model qurmaq mümkün deyildi. Amma islahatlar başa çatdıqdan, xüsusən koronavirus pandemiyası bitdikdən sonra, müəyyən vaxtdan sonra TƏBİB-in ya ayrıca bir funksional qurum olaraq, yaxud da Səhiyyə Nazirliyinin tabeliyində fəaliyyət göstərməsi daha məntiqlidir. İcbari Tibbi Sığorta Agentliyi sifariş verən bir qurumdur. Tibbi xidmətlərin həyata keçirilməsini maliyyələşdirən bir qurumdur. Adətən, sifariş verən qurumla icraedici qurum bir əldə birləşəndə burada keyfiyyət arzuedilən səviyyədə olmur. Bu, gələcəyin işidir. Bu gün səhiyyə qarşısında duran böyük perspektivlər, eyni zamanda, böyük çağırışlar var.

***- Səhiyyəmizdə dediyiniz o çağırışların uğurlu nəticələnə bilməsi üçün hansı zərurət var və hansı addımlar atılmalıdır?***

- İnanıram ki, bu çağırışların uğurla nəticələnməsi üçün biz dünya təcrübəsindən, xüsusilə qardaş Türkiyənin təcrübəsindən istifadə etməliyik. Milli Məclisdə çıxışlarımın birində bu təklifi irəli sürmüşdüm. Təəssüf edirəm ki, bizim bəzi deputat həmkarlarımız bu fikrə qarşı çıxdılar. Yenə də bu fikirdəyəm ki, biz istər dərman sənayemizi, istər tibb sənayemizi və tibbi xidmətlərimizin göstərilməsini Türkiyənin tibb və dərman sənayesi ilə yavaş-yavaş inteqrasiya etməliyik, birləşdirməliyik. Bu bir millətin - iki dövlətin əldə etdiyi uğurları da paylaşması, bölüşməsidir. Bu sahədə Türkiyənin əldə etdiyi təcrübələrdən xeyli faydalana bilərik.

*✍ Tahirə Qafarlı*

## İslahat



# Nəqliyyatın idarə edilməsində yeni dönəm

***Bu günlərdə Prezident İlham Əliyev “Bakı şəhərinin inzibati ərazisində nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” imzaladığı yeni fərmandır. Qərar paytaxtda yüksəkkeyfiyyətli nəqliyyat işinin təşkilini həyata keçirmək məqsədilə verilib və buna əsasən Bakı Nəqliyyat Agentliyi (bundan sonra - Agentlik) publik hüquqi şəxs statusu ilə Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyinə keçirilib.***

Ancaq sözügedən hal BNA-nın ləğv olunması mənasına gəlmir. Hafta.az tətbiq olunacaq yeniliklərin nələri ehtiva etdiyini və gələcək perspektivlərlə bağlı yaranmış sualları ekspertə ünvanladı.

■ **Nəqliyyat eksperti Rauf Ağamirzəyev saytımıza açıqlamasında bildirdi ki, BNA ilə bağlı dəyişikliyə indidən şərh vermək bir qədər tez olsa da, nəticələrin müsbət olacağı istisna deyil:** “Qurum 3 ay sonra prezidentə hesabat verməlidir. Gözləyib görmək lazımdır ki, bu müddət ərzində nələr baş verəcək. Ümumilikdə isə nəqliyyat agentliyinin şəhər meriyasının tabeliyində olması çox müsbət haldır. Qərarların qəbul olunmasında əngəllərin aradan qalxmasında mərkəzdən idarəedilmənin üstünlükləri var. Nəqliyyat deyəndə təkcə avtobus, taksi və parklanmadan söhbət getmir. Həmçinin mobillik, inkluzivlik, dayanıqlı şəhər layihəsi əsas götürülür ki, burada səkilərin vəziyyəti, binaların giriş-çıxışlarında bariyerlərin olması da nəzərə alınır”.

> “
> *Qabaqcıl dünya ölkələrinə nəzər salanda görürük ki, şəhər nəqliyyatının idarə olunması həmin şəhərin meriyasının tabeliyindədir*

R.Ağamirzəyevin sözlərinə görə, bu günə qədər, nəqliyyatın təşkilində yaranmış maneələrin aradan qaldırılması ilə məşğul olan qurumlar fəqli idisə, artıq belə problem olmayacaq:

“Bəzən cəmiyyətdə, yaxud sosial mediyada vəziyyətə pessimist yanaşma olur. Ancaq mən mövzuya daha optimist yanaşıram. Qabaqcıl dünya ölkələrinə nəzər salanda görürük ki, şəhər nəqliyyatının idarə olunması həmin şəhərin meriyasının tabeliyindədir. Biz nəqliyyat dedikdə avtobuslara köklənməməliyik, bu bir qədər primitiv yanaşma olar. Şəhər nəqliyyatı kompleks anlayışdır. Bura səki, yol, avtobus, taksi yaxud metro daxil edilir. İnklüzivlik dedikdə biz nəyi nəzərdə tuturuq? Şəhərdə görmə və eşitmə əngəli olan insanların rahat hərəkətinə şərait yaradılmalıdır. Məsələn, ”Bakubus”da əvvəllər dayanacaqlar barədə səsli elan gedirdi. İndi isə artıq bu elanlar yoxdur.

Mən müraciət etmişəm hələ ki rəsmi cavab gəlməyib. Əslində, bu inklüziv şəhərin bir hissəsidir. Əgər fikir vermisinizsə, görərsiniz ki, marşrutlardakı ”stop” düymələrinin üzəri dığır-dığır olur. Bu da gözdənəlil şəxslərin hissiyyatına əsasən yaradılmış funksiyadır”.

Tıxac məsələsinə gəldikdə isə ekspert deyir ki, burada əsas səbəb kütləvi avtomobilləşmənin getməsi və tələbə uyğun təklifin olmamasıdır. Bu baxımdan da yarana biləcək neqativ halların qarşısını almağa yeni qərar kömək edəcəkdir:

“Deyə bilərəm ki, avtobusların hərəkəti üçün ayrılmış zolağa digər avtomobillərin daxil olmasını görürük. Bəzən zolaq hissədə ağaclar avtobusu zədələməsin deyə sürücü nəqliyyat vasitəsini zolaqdan kənarda sürür.

Hansı ki, bu amil tıxac yarada bilir. Ağacların avtobuslara maneə törətməsinə Yaşıllaşdırma Təsərrüfatı Birliyi nəzarət edir.

Sözügedən qurum da Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyindədir. Avtobus üçün ayrılan hissədən digər avtomobillər də istifadə edir. Baxmayaraq ki, yalnız dönən maşınlara icazə verilir”.

Son dəyişikliklərlə bağlı vətəndaşları maraqlandıran ən mühüm məqamlardan biri də, BNA-nın sürücülərə yazdığı cərimələrlə bağlıdır.

“Prezident İlham Əliyevin ötən gün imzaladığı ”Bakı şəhərinin inzibati ərazisində nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” fərmanda Bakı Nəqliyyat Agentliyinin (BNA) işçilərinin paytaxtda dayanma-durma qaydalarının pozulmasına görə yazdığı cərimələrlə bağlı heç bir müddəa yoxdur”.

■ **Bu barədə nəqliyyat sahəsi üzrə ekspert, hüquqşünas Ərşad Hüseynov bildirib.** Onun sözlərinə görə, Agentliyin Bakı Şəhər İcra Hakimiyyətinə verilməsi cərimələrlə bağlı heç nəyi dəyişmir və onlar ödənilməlidir: ”İnzibati Xətalar Məcəlləsinin tətbiqi ilə bağlı dövlət başçısının fərmanı var. Həmin fərmana görə, paytaxtın inzibati ərazisində dayanma-durma və parklanma qaydalarının pozulmasına görə cərimələrin yazılması BNA-nın səlahiyyətinə verilib. Həmin səlahiyyət dünənki fərmanla geri alınmayıb, ona xitam verilməsi və yaxud başqa quruma verilməsi barədə heç nə yoxdur. Hətta bu səlahiyyətlərə xitam verilməsi barədə fərman olsa belə, həmin xitama qədərki cərimələr ödənilməlidir”.

> “
> *Hələlik dayanma-durma və parklanma qaydalarına riayət edilməsinə nəzarət yenə də BNA-nın səlahiyyətindədir*

Ekspert bildirib ki, hələlik dayanma-durma və parklanma qaydalarına riayət edilməsinə nəzarət yenə də BNA-nın səlahiyyətindədir: “Qeyd edilən fərmanda iki əsas müddəa var.

Bunlar BNA-nın Bakı meriyasının, “Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi” MMC-nin isə Daxili İşlər Nazirlyinin tabeliyinə verilməsidir. Dayanma-durma məsələlərinə nəzarətlə də bağlı fərmanda hələlik heç bir müddəa yoxdur. Bu məsələlərlə də bağlı ayrıca fərmanlar olmalıdır”.

*✍ Banu*

# 200-ə yaxın hərbçi aşağı və yuxarı ətraflarını itirib



**BMT, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), UNİCEF, Avropa Əlillər Forumu, Beynəlxalq Əlillər Alyansı və digər beynəlxalq təşkilatların dəstəyi ilə onlayn formatda “Avropa Regional Əlillik” sammiti keçirilib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən hafta.az-a verilən xəbərə görə, Azərbaycanda son illər əlillik və reabilitasiya sahəsində mühüm islahatlar aparıldığı nəzərə alınaraq ölkəmizin bu sahədə uğurlu təcrübəsini bölüşməsi də sammitin gündəliyinə salınıb.

Sammitdə çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri Anar Bayramov bildirib ki, son 3 ildə 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra müasir avadanlıqlarla təchiz olunmuş şəkildə istifadəyə verilib, yeni mərkəzlər açılıb və ölkədə reabilitasiya mərkəzləri şəbəkəsinin genişləndirilməsi işləri davam edir:

“Dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin siyahısına ötən il 23 yeni növ də daxil edilib və reabilitasiya vasitələri növlərinin ümumi sayı artıq 57-yə çatıb”.

A. Bayramov deyib ki, 2020-ci ildə tarixi Zəfərimizlə başa çatan Vətən müharibəsində 200-ə yaxın hərbçinin aşağı və yuxarı ətraflarını itirdiyini bildirib, onların yüksək texnologiyalı protezlərlə təmin olunduğunu qeyd edib:

”Həmin müharibə və Ermənistanın əvvəllər işğalda saxladığı ərazilərin mina xəritələrini tam və vaxtında açıqlamaqdan qəti şəkildə imtina etməsinin həm mülki şəxslər, həm də hərbi qulluqçular arasında əlilliyi olanların sayının artmasına səbəb olduğu qeyd edilib. Bunun da öz növbəsində yüksək texnologiyalı protezlərə və digər reabilitasiya vasitələrinə ehtiyacı əhəmiyyətli dərəcədə artırdığı bildirilib” - o əlavə edib.

# Adam necə korrupsionerə çevrilir?

## Araşdırma

***Çağdaş dünyanın və Azərbaycanın problem, bəla və faciələrinin əsas səbəblərindən biri insanların əksəriyyətinin var-dövlətə və konkret olaraq pula-paraya bağlılığıdır. Ölkəmizdə son onilliklərdə rüşvətxorluq və korrupsiyanın baş alıb getməsi, korrupsioner məmurların həbs olunduqca belə, yenə də çoxalmasının bu xislətlə bağlı olduğunu söyləsək, yanılmarıq...***



Bəs insan pula necə bağlanır? Para adamların psixikasına necə təsir edir ki, onlar bu kağız, dəmir parçaları uğrunda nəinki öz xalqlarını,vətənlərini, dövlətlərini, ən doğma və əzizlərini, öz şəxsi mənliklərini, ləyaqətlərini belə, satmağa hazır olurlar?..

Hafta.az-ın təqdim etdiyi psixoloq-məsləhətçi, ”transaksiya təhlili” istiqamətində təlimçi (şəxsi inkişaf təlimlərinin rəhbəri), Almatı Transaksiya Analizi Assosiasiyasının üzvü Asya Qagiyevanın Dağıstan mediasında dərc etdiyi “Pulun insan psixikasına təsiri” məqaləsində bəhs edilən suallara daha çox Quran və Peyğəmbər (ə.s.) hədisləri prizmasından yanaşılır.

“Allah Rəsulunun (Allahın ona salavat və salamı olsun) səhabələri arasında Səid Əmir əl-Cüməhi adlı bir gənc də var idi. Gəncliyində İslamı qəbul etdi, Mədinədə Allah Rəsulunun (sallallahu aleyhi və səlləm) yanına köçdü. Peyğəmbərin (Allahın ona salavat və salamı olsun) vəfatından sonra hər iki saleh xəlifə: Əbu Bəkr və Ömər ibn Xəttab Səidin doğruluğuna və düzlüyünə əmin olaraq məsləhət və kəlamları üçün tez-tez ona müraciət edirdilər...

Ömər ibn əl-Xəttab, Allah ondan razı olsun, xəlifə olduqdan sonra özünün istəmədiyi halda Səidi Hums sakinlərinə hakim təyin etmək qərarına gəldi. Bir dəfə Ömər, Allah ondan razı olsun, Hums yoxsullarının siyahısını istədikdə onların adları arasında Səid ibn Əmr əl-Cümahinin adını da gördü. Ömər, Allah ondan razı olsun, göz yaşı tökdü ki, saqqalı islandı, sonra min dinar götürüb Səidə göndərdi. Nümayəndə heyəti pulla Səidə çatdıqda o, pul kisəsinə baxdı və qorxaraq pul kisəsini atdı: “Həqiqətən, biz Allaha məxsusuq və dönüşümüz də Onadır ( hər hansı bir bəla baş verəndə deyilən sözlər). Ərinin dilindən bu sözləri eşidən Səidin arvadı soruşdu:

- Nə olub, Səid? Möminlərin hökmdarı öldümü?

Səid isə belə cavab verdi:

- Bundan daha ciddi bir şey oldu...

- Müsəlmanlar döyüşdə məğlub oldularmı?!

- Yox, bundan da ciddi bir şey oldu...

- Bundan pis nə ola bilər?

Səid bu dəfə isə belə cavab verdi:

- Dünyanın vəsvəsələri mənə yaxınlaşdı. Evimə məni aldadan fitnə daxil oldu...

Arvad Səidin nə demək istədiyini bilmədən “Yaxşı, onda bitir o işi”, - deyə məsləhət verdi.

- ”Bunu etməkdə mənə kömək edərsən?” soruşan ərinə ”Bəli”, - deyə cavab verdi.

Sonra isə dinarları cüzdanlara qoyub başqa kasıblara payladılar...

Həqiqətənmi, pul elə bir bəladır ki, səhabələr onu fitnə və hiylələrin sayına istinad edərək ondan tez bir zamanda xilas olmağa çalışıblar?..

Pulun psixikaya təsiri hələ elmi təcrübələrlə araşdırılmayıb. Lakin onun nə qədər dağıdıcı ola biləcəyini qiymətləndirmək üçün müşahidələrə müraciət etmək kifayətdir.

Beləliklə, pula hədsiz psixoloji bağlılıq aşağıdakı nəticələrə gətirib çıxarır:

**1. Rifah üçün real və ya xəyali təhlükə depressiyaya və ya onun kəskinləşməsinə səbəb ola bilər.**

Çox vaxt pul bir insanın uğurunun meyarı kimi qəbul edildiyindən, bu, paranın itkisi ilə insanın özünü aşağı, gücsüz, bədbəxt hiss etməsinə səbəb olur. Nəticədə stress, depressiya və psixosomatik xəstəliklər “qazanır”.

**2. Pul əmanətləri ilə bağlı narahatlıqdan qaynaqlanan müxtəlif növ paranoyalar.**

Pul sevgisi onu itirmək qorxusuna səbəb olur, həmçinin onlara maneə ola biləcək vəziyyətlərə və ya insanlara qarşı inamsızlıq və düşmənçilik yaradır. Tədqiqatçıların aralarında ticarət əlaqələri qurduqları meymunların qəddar, şübhəli, bir-birlərinə inamsız olduqlarını xatırlatmaq kifayətdir.



**3. Pul yığımının kəskin şəkildə itirilməsi nəticəsində intihara meyil.**

Təəssüf ki, bəzi insanlar üçün həyatın mənası pulun yığılmasındadır. Pul yox olanda - həyatın mənası da itir. Elə hallar var ki, müflisləşmiş vətəndaşlar könüllü olaraq yalnız özlərinin deyil, ailə üzvlərinin də həyatına son qoyub, onları intihara məcbur ediblər. Və sonda özlərini də öldürüblər.

**4. Başqaları ilə və özünüzlə fikir ixtilafları.**

Bu, yalnız şəxsi həyatınızda problemlərə deyil, həm də kəskin psixoza səbəb ola bilər.

Bu halda gəlir, mənfəət çox vaxt dəyərlər sistemində şəxsi, ailə münasibətlərinin üstün sayılır. Çoxları üçün pul ən yaxşı dostları və ailə üzvlərini əvəz edir ki, bu da istər-istəməz psixi pozğunluqlara gətirib çıxarır.

**5. Həyatdan narazılıq.**

Qəribədir ki, psixoloji mərkəz və klinikaların müştərilərin ən çox məhz zəngin insanlar olur. Buna səbəb kasıbların psixoloji yardım ala bilmək imkanı olmaması yox, çox vaxt həyatdan narazılıq səviyyəsinin rifah səviyyəsi ilə paralel olaraq artması olur. Dünyəvi iştaha gəlirin artması ilə artır və bildiyiniz kimi, dünya susuzluğu artıran, onu doyurmayan bir içkidir.

Allah Rəsulu (sallallahu aleyhi və səlləm) buyurub: “Əgər Adəm oğlunun iki vadi dolu var-dövləti olsa, o, üçüncü vadini də əldə etməyə çalışar! Və yalnız torpaq, nəhayət, Adəm oğlunun qarnını doldura bilər. Allah tövbə edənin tövbəsini qəbul edər”...

**6. Daxili azadlığın itirilməsi. Allah Rəsulu (salləllahu aleyhi və səlləm) buyurur: “Adəm övladı yaşlandıqca cılızlaşır, amma onda iki qayğı cavanlaşır - pul və can qayğısı”.**

İnsan pula nə qədər çox bağlıdırsa, xoşbəxt həyat və məhsuldar fəaliyyət üçün bir o qədər daxili azadlığı azalır.

Pulla bağlı həyatdan narazılıq ona görə təhlükəlidir ki, o, Uca Yaradana naşükürlük, icazə verilən hüdudlardan kənara çıxmaq, iman və mənа itkisinə səbəb olur. Burada söhbət pulun olub-olmaması deyil, ona münasibət, ona bağlılıq və asılılıq dərəcəsidir. Xoşbəxtliyi və bədbəxtliyi ancaq pulla bağlı olan kasıb da, malını Allah yolunda bağışlayan zənginlərdən də ola bilərsən. Deməli, burada əsas məsələ ondadır ki, sən pulun ağasısan, yoxsa qulusan. Əgər siz pulun ağasınızsa (yəni onunla bağlı ehtiyaclarınıza uyğun olaraq, özünüz və başqaları üçün maksimum fayda ilə sərəncam verirsiniz), deməli, həsəd aparılanlardansınız. Necə ki, Allah Rəsulu (salləllahu aleyhi və səlləm) buyurur:

“İki nəfərdən başqa heç kimə paxıllıq etmək olmaz: Allahın mal verdiyi və onu gecə-gündüz sərf edən şəxs və Allahın Quran bəxş etdiyi və gecə-gündüz onunla məşğul olan şəxs...”.

Əgər insan pulun quluna çevrilirsə, onda onu acı tale gözləyir - asılılıq, narazılıq, hərislik, korlanmış münasibətlər və ya maddi gəlir meyarlarına əsaslanan münasibətlər və s. Amma ən böyük acılıq Allah Rəsulunun lənətidir.

Əbu Hüreyrənin (Allah ondan razı olsun) rəvayətinə görə, Allahın Rəsulu (salləllahu aleyhi və səlləm) belə buyurub: “Dinar, dirhəm və hər cür dəbdəbəli əşyaların qulu həlak olsun, çünki o, verilən zaman sevinər, əks halda qəzəb içində narazı qalar”.

✍ *Sultan*

# Alban Avtokefal Kilsəsinin hüquqi varisi Alban-Udi dini icmasıdır

**“Alban kilsələrinin erməni kilsələrinə heç bir aidiyyəti yoxdur”. Bunu APA-ya açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdiri Əli Həziyev deyib.**

O bildirib ki, bütün alban abidələri Alban-Udi dini icmasına, dolayısı ilə Alban Avtokefal Kilsəsinə məxsusdur: “Yəni, Alban Avtokefal kilsəsinin hüquqi və mənəvi varisləri bu gün Alban-Udi dini icması olduğundan biz də məntiqi olaraq bütün alban abidələrini o dini icmanın mənsubiyyəti hesab edirik. Yayılan dezinformasiyalar bizim beynəlxalq təbliğatımız qarşısında atılan addımlardan biridir. Bu, onu göstərir ki, Azərbaycan həqiqətlərin təbliğatında düzgün yoldadır. Vaxtaşırı bu cür hücumlara da məruz qalmağa hazır olmalıyıq”.

Şöbə müdiri mənbələrdə xristianlığın Albaniyaya gəlişinin eramızın I-II əsrinə təsadüf etməsinin göstərildiyini vurğulayıb: “Albaniya ərazisində xristianlığın yayılması İsa Məsihin həvariləri Faddey və Varfolomeyin, eləcə də apostol Faddeyin şagirdləri Müqəddəs Yelisey və Marın adları ilə bağlıdır. Bu fakt olduqca önəmlidir. Çünki bu amil Alban Kilsəsinin qədim olmasını göstərməklə yanaşı, həm də onun başqa kilsələr vasitəsilə deyil, birbaşa İsa Məsihin şagirdləri - həvariləri tərəfindən təsis olunduğunu ortaya qoyur. Odur ki, Qafqaz Albaniyasında qurulan kilsə təkcə Qafqazın deyil, dünyanın ən qədim kilsələrindən sayılır. Pravoslav icmasına görə, Qız qalasının ətrafında Varfolomeyin məzarı var və vaxtilə 1892-ci ildə - Qız qalası yaxınlığında “Müqəddəs Varfolomey” rus pravoslav kilsəsi inşa olunmuşdur. Şəkidə olan Kiş kilsəsi də Qafqazda ilk xristian məbədlərindəndir”.

ELAN

**Hörmətli “Nar” abunəçiləri,**

18.02.2022 tarixindən etibarən “Nar”ın köhnə “Yerlim” tarifində dəyişikliklər olacaq. Daha ətraflı məlumat <www.nar.az> səhifəsində yerləşdirilib.

## HƏFTƏ REYTİNQ

### Həftənin İSTEFASI



Jurnalistləri təhqir etməsi ilə gündəmə gələn deputat Cavanşir Feyziyev Mətbuat Şurasının sədri Əflatun Amaşova müraciət edərək Şuranın İdarə Heyəti üzvlüyündən istefa verdiyini bildirib. Xatırladaq ki, bundan öncə Ə.Amaşov açıqlama yayaraq bildirmişdi ki, Cavanşir Feyziyevlə əlaqə saxlayıb: “Baş verənlər və onun Mətbuat Şurasının İdarə Heyətinin üzvlüyünüdən istefası məsələsini müzakirə etdik. Hazırda Cavanşir müəllim ölkədə yoxdur. Bir neçə günə gələcək. Onun özünün də iştirakı ilə İdarə Heyətinin iclasında məsələni bir daha müzakirə edəcəyik”.

### Həftənin ÜZRÜ



XVI Roma Papası Benedikt Münhen arxiyepiskopu vəzifəsində işlədiyi müddətdə kilsələrdə cinsi zorakılığa məruz qalanlardan bağışlanmasını xahiş edib. O, cinsi istismarda sui-istifadə hallarının ört-basdır edilməsində qəsdən səhv etmədiyini deyib. Bu barədə Almaniyanın Münhen şəhərində bir hüquq firması hesabat hazırlayıb. Hesabatda 1945-2019-cu illər dövrünə aid olan cinsi istismar hadisələrində 94 yaşlı keçmiş ruhani liderin tədbir görmədiyi qeyd olunub.

### Həftənin YAZIÇISI



“Microsoft”un yaradıcısı Bill Geyts “Növbəti Pandemiyanın qarşısını necə almalı” adlı kitab yazıb. Bu barədə milyarder öz saytında yazıb. Geyts kitabında gələcəkdə oxşar qlobal hadisələrin qarşısını almaq və planetdəki bütün insanlara daha yaxşı sağlamlıq xidməti göstərmək üçün olan addımlardan söz açıb. Kitabın mayın 3-də nəşr olunacağı gözlənilir.

### Həftənin XƏSTƏSİ



Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri Vladimir Jirinovski xəstəxanaya yerləşdirilib. Siyasətçi Moskvada Mərkəzi Klinik Xəstəxanaya yerləşdirilib. Jirinovskinin səhhətindəki problemin nədən ibarət olduğu açıqlanmayıb. “TASS”ın siyasi dairələrdəki mənbələrinə istinadən verdiyi məlumata görə, Jirinovski artıq bir neçə gündür ki, Mərkəzi Klinik Xəstəxanadadır. 75 yaşlı siyasətçinin vəziyyəti ağır olaraq qiymətləndirilir.

### Həftənin TƏKLİFİ



Rusiya Ukraynanın sabiq prezidenti Pyotr Poroşenkoya humanitar səbəblərə siyasi sığınacaq verməyə hazırdır. Bunu Rusiya Prezidenti Vladimir Putin deyib. O, vaxtı ilə Poroşenkoya siyasi sığınacaq təklif etdiyini və indi də bunu etməyə hazır olduğunu dilə gətirib. “İndi həmin Poroşenkonu xəyanətdə günahlandıraraq, onun Minsk razılamalarını imzalamasına eyham vururlar. Bəli, o, sazişləri imzalayıb, hə nə olsun? Bütün ölkə bunu qəbul edib. Bu, Təhlükəsizlik Şurasının qətnaməsi ilə təsdiqlənib. Mən deyəndə ki, “Vaxt gələcək, biz sənə siyasi sığınacaq verməyə hazır olacağıq”, zarafat etmirdim”.

### Həftənin HƏDİYYƏSİ



Dünya futbolunun ulduzu, “Mançester Yunayted”in üzvü Kriştianu Ronaldonun sevgilisi Corcina Rodrigez ona ad günü münasibətilə avtomobil alıb. O, 37 yaşı tamam olan Ronaldoya 150 ??min funt-sterlinq (təxminən 345 min manat) dəyərində ”Cadillac Escalade” hədiyyə edib. Corcina Ronaldoya hədiyyə verməsini də sosial şəbəkədə paylaşıb.

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU



Pekin Olimpiadası davam edir...

## “Azərbaycanın Avrasiya İttifaqına qoşulması ümkündür”

**Rauf Qurbanov,**
Azərbaycan Kommunist Partiyasının (AKP) sədri

Rusiyanın Qarabağın erməni əhalisini Rusiya vətəndaşı etməsinə də bir ehtiyacı yoxdur.

Səh. 5

## STATİSTİKA



■ Ən böyük şəhər aqlomerasiyası 37 milyon 126 min əhalisi olan Yapon ”Tokio-Yokohama”dır.

■ Meksikanın Sdad Xuarez şəhəri dünyanın ən kriminal şəhəridir, burada hər 100 min nəfərə 190 sakin qətlə yetirilir.

■ Rusiyada 15 milyonçu şəhər var. Onların hər birində bir milyondan çox insan yaşayır və buraya, şəhərətrafı ərazilər daxil deyil.



Səh. 4

## Uğurlu biznesi necə qurmalı